

# İlham Əliyev Ərdoğana zəng edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdinin ildönümü ilə bağlı telefonla zəng edib. "Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb. Dövlət başçısı ilk növbədə həmin...*

Səh.2


# UNİKAL

№26 (2064) 16 İYUL 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Əhməd Vəliyev bankını böhrandan necə çıxardı...

## Sabiq deputat və rektorun bankı üçün çətin günlər arxada qaldı?

*Mətbuatdan məlum olduğu kimi, S&P Global Ratings beynəlxalq reytinq agentliyi "Muğanbank" üzrə uzun və qısamüddətli emitent kredit reytinqlərini '"CCC + / C"dən "B- / B" səviyyəsinə yüksəldib, banka dair proqnozunu sabit olaraq qiymətləndirib. Agentliyin məlumatına əsasən, "Muğanbank"ın ani likvidlik əmsalı sabitləşib və 2021-ci ildə (minimum normativ 30%-lə müqayisədə) 50%-dən yuxarı olub, fiziki şəxslərin depozit bazası isə 2021-ci il aprel ayının əvvəlində depozitlərin tam sığortalanma müddəti bitdikdən sonra artıb. Məlumatda, həmçinin, banka, nəzarətçi səhmdarı tərəfindən 5 milyon Azərbaycan manatı məbləğində kapital qoyuluşunun edildiyi və bankın 2021-ci ilin ilk beş ayı ərzində yerli mühasibat standartlarına uyğun olaraq kiçik həcmdə mənfəət əldə etdiyi qeyd edilir. Qeyd edilən müsbət tendensiyalar, S&P Global Ratings-in bank üzrə uzun və qısamüddətli emitent kredit...*

Səh.5

Səh.9



# Ordumuz anti-terror əməliyyatlarına başlaya bilər

## "Qarabağda hərbi əməliyyatlar keçirilməlidir"



*İyulun 9-10-da Bakıda yerləşən diplomatik korpusların Şuşaya təşkil edilən səfərinə ATƏT-in Minsk Qrupu həmsədrləri olan Rusiya, Fransa və ABŞ səfirlərinin qatılmaması cəmiyyətdə birmənalı qarşılanmayıb. Özlərini vasitəçi, beynəlxalq hüququn təminatçısı hesab edən dövlətlərin bu cür yanaşması...*

Səh.4

## XİN Ermənistan Baş nazirinin müavininə cavab verdi




*Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Baş nazirinin müavini Tiqran Avinyanın "Qarabağın statusu məsələsi həll olunmayanadək sülh müqaviləsi olmayacaq" bəyanatına münasibət bildirib. "Unikal"ın xəbərinə görə...*

Səh.2

## Azərbaycanda erkən nikah yenidən baş qaldırır



*Azərbaycanda erkən nikah problemi bir müddət müsbətə doğru həll olunsa da, son bir ildə yenidən aktuallaşıb. Bu günlərdə Şəkinin Dəhnə kəndində 16 yaşlı qızın 30 yaşlı kişiyə ərə verilməsi köhnə ənənənin yenidən baş qaldırdığını təsdiqləyir.Bəs görəsən erkən nikahın ölkəmizdə yenidən populyarlaşması səbəbləri nədir?*

Səh.11

# "Bir evim var, onu da satıram" - Məleykə Əsədova



***"Həmişə istəyirəm ki, aktyorlar səhnədən alqışlarla yola salınsın. Amma olub ki, aktyorlarımızın çoxu səhnədən yola salınmayıb: Telman Adıgözəlov, Əjdər Həmidov, Rafael Dadaşov. Düzdür, buna pandemiya da səbəb oldu. Rafael Dadaşov vəfatından 2-3 ay öncə "Şöhrət" ordeninə layiq görüldü. Aktyor nə istəyir ki? Alqış, sevgi. Biz sənət fədailəriyik".***

Bu sözləri Xalq artisti Məleykə Əsədova "Üzə-düz" proqramında deyib. Aktrisa sənət adamlarına dəyər verilmədiyini söyləyib: "İndi deyirlər, aktyorun mükafat üçün filan yaşı olmalıdır. İndi heç 60 yaşa çatırıq ki? Ürəyim xəstədir. 60 yaşa çatmamış, bir də görürsüz ki, dünyamızı dəyişirik. Bəs, biz nə vaxt o şöhrəti görəcəyik? Nə istəyirik ki, sənətimizə alqış. Sənət adamları, teatr aktyorları çox həssas, duyğusal olurlar. Görünüşcə cavan qala bilərəm, səhnədə nə boyda obrazlar yaratmışam. 32 ildir davam edir. Biz efirlərə də pulsuz gedirik, özümüzü fəda edirik. Bunu etməliyik, təmsil etmək bizim borcumuzdur. Sənət adamlarına vaxtında qiymət vermək lazımdır. Bəlkə kimsə 50-60 il səhnədədir. Səhnədə barmaqla sayılası aktyorlar var, biri də mən. Sənətdən başqa başqa heç bir şey bacarmıram, biznes də bilmirəm".

M.Əsədova evini satışa çıxardığını deyib: "Bir evim var, onu da neçə ildir satışa qoymuşam, satılmır. Sata bilmirəm ki, özümünkülərə kömək edim. Biz bunları dilə gətirməməliyik. Aktrisa ucada, əlçatmaz olmalıdır. Məni səhnədə tamaşalarımla görməlidirlər, qəlbimi küsdürməməlidirlər".

# "Deyir ki, Səyyadla Mətanət sevgili olub" - Cavanşirdən Mənzurəyə sərt sözlər



***Əməkdar artist Cavanşir Məmmədovla müğənni Mənzurə Musayeva arasında dava düşüb.***

Buna səbəb Mənzurənin dediyi "Duet ortaqları sevgili olur, eşq yaşayır" sözləri olub. C.Məmmədov "Xəbərçi" proqramında Mənzurənin ünvanına sərt sözlər deyərək, ona xəbərdarlıq edib:

"Öz gözlərində tir görməyən başqa gözlərdə mil axtarırlar. Prodüser, sponsor, menecer sevgilin deyil? Adam danışanda qadın olduğunu düşünməlidir. Biz açıb tökmərik çay nəyin üstündən axır. Elə danış ki, quyuya özün düşə bilərsən. Durub deyir ki, Səyyad Əlizadə ilə Mətanət sevgili olub. Onun ailəsində niyə söz söhbət yaradırsan? Utanmırsan? Uşaqsan? Adama bir dəfə, iki dəfə deyərlər. Kimsə sənin haqda bildiyini danışsa, yaxşı olar? Bir dəfə sənə xəbərdarlıq etmişəm ki, danışığına fikir ver. Qayıtdın ki, sizdən danışmıram. Lap məni demirsən, nə haqqın var? Biz çox şeylərin şahidi olmuşuq".

Mənzurə isə C.Məmmədova "Kim ona deyir öz üzərinə götür. İşi bilənlər bilir. Ağ kağızam, ləkə götürmərəm. Mənim haqqımda heç kim heç nə deyə bilməz. Cavanşir uşaq deyil, hər şeyi qəşəng bilir. Olanları demək eyib deyil. Sən niyə özünə götürürsən ki? Mən demişəm 80 faiz sevgilidir. Sən qal 20 faizin içində" cavabını verib.



# "Dediyim oldu, indi Aygün Kazımova və Röyadan sonra mənəm"

***"Sənətə gələndə komanda şəklində çalışırdıq. Adımı dəyişib Banu etmək istəyirdilər. Düşündüm ki, Banu kimi tanındım, axı əsl adım deyil. Nə yaxşı ki, buna icazə vermədim".***

Axşam.az xəbər verir ki, bu sözləri müğənni Günay İbrahimli "Söhbət musiqidən gedir" proqramında deyib. Sənətçi babasının onun sənətə gəlməyinə etiraz etdiyini söyləyib: "Tək babam yox, qohumlar etiraz edirdilər. Amma babamın ömrünün son günlərində halallıq aldım. Müğənniliyimi qəbul etməyən babamı çox istəyirdim. Onu o vaxt ermənilər girov götürmüşdü. Babamın o vaxtdan səhhətində problemlər yaranmışdı. Ona görə də ömrünün sonunda xəstə oldu. Xəstəxanada yatanda yanında idim. Stolda olan jurnalı götürdü və dedi ki, səninlə fəxr edirəm (ağlayır)".

Günay anasının onun üçün aldığı mahnıdan bəhs edib: "Kasıb ailədə dünyaya göz açmışam. Anam gördü ki, gücüm çatmır. Səsim, bacarığım olsa da maddiyat lazımdır. Tural Məmmədli yazan bir mahnı var idi. Anam qızıllarını satıb, mənə "Sənsiz" mahnısını alıb. Amma heç o mahnını oxumadım".

Sənətçi aparıcı Leyla Quliyevanın "Səhnəyə ilk gələndə demişdin ki, Aygün Kazımova, Röya Ayxandan sonra mənəm. İndi nə deyirsən" sualına belə cavab verib: "Dediyim oldu, səhnədə Günay oldum. Özümü xoşbəxt hiss edirəm ki, tək tanınmış ifaçı yox, xalqın sevgisini qazanmışam. Getdiyim yerlərdə gözəl sözlər eşidirəm. Alqış müğənni üçün böyük işdir".

# "Sən niyə o toylara getmirsən" deyənlərə Flora Kərimovadan reaksiya

***Xalq artisti Flora Kərimovanın müğənnilərin ünvanına dediyi "qazi, şəhid ailəsinin toyuna gedib reklam edirlər" ifadəsi qalmaqala səbəb olub.***



Axşam.az xəbər verir ki, sənət adamlarının bir çoxu və sosial şəbəkə istifadəçiləri Kərimovanı bu sözlərinə görə qınayıb.

Müğənni yazılan tənqidlərə cavab verib. O bildirib ki, hər zaman qazi və şəhid ailələrinin dəvətlərini qəbul edib, məclislərinə qatılıb:

"İllər əvvəl 11 min şəhidi, 50 min qazisi, 4 mindən çox itkini olan ölkənin Xalq artisti idim. Bu facıəni indi çoxları unudub. Mənim isə yaddaşım hələ də qan ağlayır.

İndi isə qalib bir dövlətin sənətkarıyam. O yaranı 27 il mən ürəyimdə daşımışam. Etdiyim əməllərimlə bu gün qürrələnməyə sizdən çox haqqım çatır. Həmin illərdə nə qazilər təqdim edilir, nə də şəhidlər belə dəfn edilirdi. Bir qazi, şəhid övladı deyə bilməz ki, Floranı bir məclisimə çağırdım gəlmədi. Təəssüf ki, həmin illər İnstaqram, nə də alternativ vasitələr var idi. 25 il efir qadağası olan biri idim. Məndə əzmkarlıq var idi ki, bu etdiklərimi dilə gətirim, gündəm edim? Çox şükür edirəm ki, yaradan bu xisləti mənə rəva bilmədi.

"Sən niyə o toylara getmirsən" sualını verənlər, məndən nəsə tələb edənlərin ən az mənim yaşımın yarısı qədər yaşı olub, yaşadığımın yüzdə birini yaşamalıdır. Bu torpaq üçün etdiyimin birini edən olmadı. 80 yaşında hər nəfəs aldığımda nə vaxtsa tapşırılacağım torpağımda yaşadığıma görə hər saniyəmə şükür edirəm. Ən zalimimizin belə qanı qanımdan, canı canımdan olan vətəndaşımızdır".

# Hacı Zeynalabdin Tağıyevin heykəli burada qoyulacaq



***Bakıda Hacı Zeynalabdin Tağıyevin heykəlinin qoyulacağı yer müəyyənləşib.***

"Unikal"ın məlumatına görə, metronun "İçərişəhər" stansiyasının yaxınlığında heykəlin qoyulacağı yer əhatəyə alınıb.

Yaxın günlərdə heykəlin qoyulması üçün ərazidə qazıntı və fundament qoyulması işlərinə başlanacaq.

# Qəbul imtahanlarının nəticələri bu tarixlərdə açıqlanacaq

***Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən 15 iyulda keçirilən II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanının nəticələrinin elan olunacağı vaxt açıqlanıb.***

DİM-dən "Unikal"a verilən məlumata görə, iyulun 16-dən etibarən DİM-də imtahan protokolları və materialların emalına başlanılacaq.

İmtahanlarda istifadə olunan açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

# Erməni ekspertdən etiraf: Bəyanatda Zəngəzur dəhlizi var




***Üçtərəfli bəyanatı ilk gün oxuyanda bir şey gözümə sataşdı, hansı ki, orada Rusiyanın 5 illik nəzarəti altında polifunksional yolun çəkilməsi və açılmasından bəhs edilirdi.***

Bunu erməni ekspert Emma Beqidcanyan deyib. "Türkiyə və Azərbaycan bunun dəhliz olduğunu bəyan edirlər. Əgər bu, Mqer Qriqoryanın (baş nazirin müavini) dediyi kimi Ermənistandan Azərbaycan vasitəsilə Rusiyaya gedən yoldursa, o zaman belə çıxır ki, Rusiya maşın və qatarların təhlükəsizliyini həm də Azərbaycan ərazisində təmin etməlidir. Amma əgər sən dəhliz verirsənsə, demək ki, öz ərazini başqasının nəzarətinə verirsən. Yeganə qəbul olunan variant yolun Ermənistanın yurisdiksiyasında və nəzarətində olmasıdır. Bax bu, yol deməkdir, amma bəyanatda yazılan yol deyil.

İran bu dəhlizdən narahatdır və onlar bizdən çox bilirlər. Onlar dəfələrlə bəyan ediblər ki, bu, onlar üçün qırmızı xəttdir, amma İranın özü belə bu istiqamətdə ciddi addımlar atmaq vəziyyətində deyil. İndiki situasiyada edə biləcəyimiz yeganə şey bizim nəzarətimizdə tranzit yoluna yükləri yoxlamaq haqqı ilə izn vermək ola bilər", - deyə o bildirib.

# Daha bir marşrut avtobusu "BakıKart"a keçir

***İyulun 16-dan Bakıda fəaliyyət göstərən 62 nömrəli marşrut xətti (Sabunçu d/st. - N.Tusi küçəsi) üzrə hərəkət edən avtobuslarda gedişhaqqı "BakıKart" vasitəsilə o?dəniləcək.***

Bu barədə "Unikal"a Bakı Nəqliyyat Agentliyindən məlumat verilib. Məlumatda bildirilir ki, sərnişinlərin rahatlığının təmin edilməsi məqsədilə Xətai rayonu üzrə Neapol 32, N.Tusi küç.137, N.Tusi 294Q, S.Ə.şirvani küçəsi, Sabunçu rayonu üzrə Əsildar Məmmədəliyev 76, Kişvəri Dilməqani 11, Sabunçu qəsəbəsi - şəhər şosesi, Nizami rayonu üzrə, Qara Qarayev pr. 102, Əzim Əzimzadə 34/64, Azər Manafov küç, Qara Qarayev 89, Qara Qarayev pr.1 ünvanlarındakı "OBA" marketlərdə "BakıKart" balansının artırılması üçün POS terminallar quraşdırılıb.

Dövlət başçısının tapşırığına uyğun olaraq son beş ildə bu istiqamətdə mühüm addımlar atılıb. Paytaxtın marşrut şəbəkəsində istismarda olan avtobusların 58 %-i nağdsız ödəniş sisteminə inteqrasiya edilib. Hazırda gündəlik olaraq 780 min nəfərə yaxın sərnişinin (ümumi sərnişinlərin 42%) nağdsız ödəmə sisteminin xidmətlərindən istifadə edir.

İş prosesinə uyğun olaraq digər marşrut xətləri də mərhələli şəkildə nağdsız ödəniş sisteminə inteqrasiya olunacaq. Bununla bağlı əvvəlcədən məlumat veriləcək.

# "Akkord"un Zakir Qaralovdan sonrakı çətin günləri...

## Məşhur tikinti şirkətinə qarşı məhkəmə iddialarının sayı rekord həddə çatır

***Azərbaycanın aparıcı sənaye tikinti qruplarından olan "Akkord" böyük layihələr reallaşdırmaqla yanaşı, çoxsaylı məhkəmə proseslərinin də iştirakçısıdır.***

Yerli media xəbər verir ki, şirkətin adı mütəmadi olaraq məhkəmə prosesləri və iddialarda çəkilir. Müşahidələr göstərir ki, iddiaların əksəriyyəti alqı-satqı müqavilələrinin icrası ilə bağlıdır, bunların bir hissəsi görülən işlərə görə ödənişlərin gecikdirilməsinə aiddir.

Təkcə Bakı Kommersiya Məhkəməsində "Akkord"a qarşı qaldırılan iddiaların siyahısı kifayət qədər genişdir. Nə az, nə çox, düz 20 fərqli iddianın yer aldığı siyahıda fiziki və hüquqi şəxslərlə yanaşı, "Azəriqaz" İstehsalat Birliyi, İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsi kimi dövlət qurumları da var.

"Azəriqaz"ın iddiası istehlak edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilməsi ilə bağlıdır. Dövlət Vergi Xidməti Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsinin iddiasının konkret nədən ibarət olduğu isə bəlli deyil.

Məlum olduğu kimi, "Akkord"un adı Azərbaycanın sabiq Baş prokuroru Zakir Qaralovla yanaşı çəkilir. Adıçəkilən şirkətin qeyri-rəsmi şəkildə məhz Qaralova məxsus olduğu barədə yerli media çoxdan yazır. Bu cür iddialar indiyədək rəsmən təsdiqlənməsə də, hər halda təkzib də edilməyib.

O da maraqlıdır ki, "Akkord"la bağlı qalmaqallı xəbərlər Zakir müəllim vəzifəsindən uzaqlaşdırıldıqdan sonra daha da intensivləşib. Bu isə Azərbaycan təcrübəsində tez-tez rastladığımız haldır: hansısa



yüksək vəzifəli şəxs öz postunu itirdikdən sonra onun nəzarətində və yaxud himayəsindəki şirkətlərin də çətin günləri başlayır (kiçik haşiyə: xatırladaq ki, 2000-ci il aprelin 25-də Baş prokuror vəzifəsinə təyinat alan Zakir Qaralov bu postu 20 ildən sonra tərk etdi, daha doğrusu, həmin vəzifədən azad edildi. Və bu barədə qərar açıqlanandan sonra medianın yazdığına görə, onun özünə qalsaydı, yəqin ki, daha 5 il müddətinə qalıb işləyərdi).

Elə "Akkord"da Z.Qaralov Baş prokuror vəzifəsini itirdikdən sonra mütəmadi şəkildə məhkəmə iddiaları, müxtəlif məzmunlarda çoxsaylı vətəndaş şikayətləri ilə gündəmə gəlir.

Hətta ötən ilin yayında adıçəkilən şirkətin külli miqdarda vergi borcunun olduğu ortaya çıxmışdı. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı məlumatda deyilirdi ki, "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin 980 min 418 manat vergi borcu var.

2006-cı ildə dövlət qeydiyyatına alınan şirkətin vergi borcu barədə açıqlamanın Z.Qaralovun vəzifədən uzaqlaşdırıldıqdan (1 may 2020-ci ildən) qısa müddət sonra açıqlanması da diqqət çəkməyə bilməzdi.

Üstəlik, yuxarıda bəhs etdiyimiz iddialardan birinin - Dövlət Vergi Xidməti Baki Şəhəri Lokal Gəlirlər Baş İdarəsinin iddiasının da məhz həmin 980 min manatlıq vergi borcu ilə bağlı olması da tamamilə mümkündür.

Yeri gəlmişkən, bu yaxınlarda "Akkord"la bağlı daha bir qalmaqal yaşanmışdı - belə ki, "İtalian Design Holding"in direktoru Franko Rizzatonun Bakının "Gənclik" metrostansiyası yaxınlığında 2013-cü ildə tikilən tunelə yarım milyard dollardan çox pul, yəni 512 milyon dollar xərcləndiyini açıqlamış və bu böyük müzakirələrə səbəb olmuşdu; elə həmin vaxt "Akkord"un çəkdiyi, istifadəyə verildikdən qısa müddət sonra bir neçə dəfə çökən Bakı-Quba-Rusiya yolunun tikintisi üçün də 147 milyon manat (hər kilometri 1,1 milyon manata!) xərcləndiyi gündəmə gəlmişdi. Üstəlik, yolun beton örtüyü xüsusi istilik sistemilə quraşdırılmalı olsa da, sonradan bunun reallaşmadığı, yeni yolun elə adi beton örtüklü çəkildiyi və istifadəyə verildiyi ortaya çıxmışdı.

Bir sözlə, Zakir müəllimin vəzifədən getməsindən sonra "Akkord" ətrafında nə qalmaqallı xəbərlər səngiyir, nə də məhkəmə iddiaları... Və belə görünür biz qarşıdakı dövrdə oxşar xəbərlərin də, məhkəmə iddialarının da çox şahidi olacağıq. Çünki əvvəl də qeyd etdiyimiz kimi, Azərbaycanda yüksək vəzifəli şəxslərin tutduqları postları itirdikdən sonra onlara məxsus şirkətlərin də çətin, böhranlı günlər yaşaması təcrübədən yaxşı məlumdur...

***Sənan Mirzə***

# Azərbaycan nümayəndə heyəti ilk dəfə bu ölkəyə səfər edir

***Azərbaycanın parlament nümayəndə heyəti ilk dəfə Şimali Kipr Türk Respublikasına səfər edəcək.***

"Unikal" Anadolu Agentliyinə istinadən xəbər verir ki, Türkiyə parlamentinin Xarici əlaqələr Komissiyasının sədri Akif Çağatay Kılıç Azərbaycan nümayəndə heyətinin bu səfərini tarixi hadisə adlandırıb.

Ankarada Milli Məclisin nümayəndə heyəti ilə görüşü zamanı Kılıç qeyd edib ki, nümayəndə heyətinin Lefkoşaya ilk səfəri bütün dünya üçün vacib mesaj olacaq. O, həmçinin



qeyd edib ki, Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" prinsipi əsasında əminliklə gələcəyə baxırlar.

"Türkiyə Azərbaycanın uğurları ilə fəxr edir", - deyə Akif Çağatay Kılıç vurğulayıb.

Qeyd edək ki, iyulun 15-i Türkiyə Böyük Millət Məclisinin binasında Türkiyə, Azərbaycan və Şimali Kipr Türk Respublikasının parlament nümayəndə heyətləri arasında görüş baş tutacaq.

Bunun ardınca, iyulun 16-sı Azərbaycan nümayəndə heyəti Şimali Kiprə səfər edəcək. Nümayəndə heyətinin Şimali Kiprdə bir sıra tədbirlərdə iştirak edəcəyi gözlənilir.

# Ordumuz anti-terror əməliyyatlarına başlaya bilər

## Ermənistan tərəfinin təxribatçı addımları Azərbaycanı sərt cavab verməyə sövq edir

***Xəbər verdiyimiz kimi, iyulun 15-i gecə saatlarında Azərbaycan Ordusunun Şuşa şəhəri ətrafındakı mövqeləri atıcı silahlardan atəşə tutulub. Bu barədə “Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib. Atəş, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri tərəfindən açılıb. Qarşı tərəfin susdurulması məqsədilə cavab atəşi açılıb. Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.***

Qeyd edək ki, erməni tərəfi iyulun 14-də də Şuşa və Naxçıvan istiqamətində təxribat xarakterli addımlar atmışdılar. Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi ərazilərdə növbəti dəfə qanunsuz erməni silahlı birləşmələri Şuşa ətrafında bölmələrimizi atəşə tutub. Bu da onu göstərir ki, erməni tərəfi əldə olunan razılaşmanı pozmaqla yanaşı, növbəti dəfə sərt cavab almaq istəyir. Rəsmi İrəvanın da ara -sıra razılaşmaya ziddi addımları və bəyanatları Azərbaycanı sərt reaksiya verməyə sövq edir.



Azərbaycan Prezidenti İlham Əliyev də Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlilləri ilə görüşündə Ermənistanın təxribatçı hərəkətlərinə münasibət bildirib. O bildirib ki, delimitasiya işləri ilə bağlı indi beynəlxalq təşkilatlar da müsbət reaksiya verirlər. Əgər Ermənistan bunu etmək istəmirsə, özü bilər, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər.

Dövlət başçısı bildirib: “Necə ki, vaxtilə əgər öz xoşları ilə bizim torpaqlarımızdan çıxsaydılar, bu qədər rəzil duruma düşməzdilər. Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir.

Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik.

Biz bütün quruculuq işlərimizlə bağlı planları sistemli şəkildə həyata keçiririk və artıq quruculuq işlərinə start verilib. Biz, dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İnsanlar ora qayıdacaq, öz dədə-baba torpağında rahat yaşayacaqlar”.

Hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov “Unikal”a açıqlamasında deyib ki, Ermənistanın son günlər Qarabağda törətdiyi təxribatlar gözlənilən idi. Onun sözlərinə görə, bu kimi təxribatların qarşısı Azərbaycan Ordusu tərəfindən alınır: “Düşmənin istər Qarabağda, istərsə də Naxçıvanda törətdiyi təxribatlar cavabsız qalmayacaq. Lazım gələrsə, düşmənə istənilən formada sərt cavablar veriləcək”.

Ş.Ramaldanov bildirib ki, təxribatların məqsədi Qarabağda gərginliyi saxlamaqdır: ”Təbii ki, həmin ərazilərdə nəsə baş verəndə Azərbaycan tərəfi öz iradını məhz Rusiya sülhməramlılarına bildirir. Bu mənada, ermənilər sülhməramlılarla Azərbaycanın əlaqələrini soyutmağa çalışır. Yəni bu, normal bir prosesdir. Postmüharibə dövrüdür. Dünyanın hər yerində müharibədən sonra terrorçu qruplar, quldurlar, eləcə də təxribatçılar bir müddət həmin ərazilərdə qalırlar. Birdənbirə heç nə sakitləşmir. Ola bilsin ki, Qarabağdakı terrorçuları diasporlar və ya müəyyən xarici qüvvələr maliyyələşdirir. Ancaq bizim gücümüz bütün bunları nəzarətdə saxlamağa imkan verir”.

MCP sədrinin muavini, politoloq Məhəmməd Əsədullazadə isə bizimlə söhbətində bildirib ki, artıq Rusiya Qarabağda sülhməramlı missiyasını yerinə yetirmir və Azərbaycan öz ərazisindən atəşə məruz qalır. Onun sözlərinə görə, 10 noyabr Birgə Bəyannamənin 4-cü bəndi yerinə yetirilmir, hətta buradak silahlı ermənilər Azərbaycana qarşı hücmlar təşkil edir: “Bu səbəbdən də, Azərbaycan hərəkətə keçməlidir. 1990-cı illər deyil ki, Rusiya hərbçiləri olduğu üçün biz seyrçi qalacağıq. Qarabağdakı ermənilərin bu fəaliyyətinə Rusiya məsuliyyət daşıyır. Buna baxmayaraq Rusiya bununla N. Paşinyan hakimiyyətini çətin bir vəziyyətə salaraq Azərbaycanla mümkün danışıqları sabotaj edir. Qarabağdakı erməni separatçıların fəaliyyəti birbaşa Ermənistan hakimiyyətinin və xalqının əleyhinə işləyir. Bunu N. Paşinyan da çox gözəl anlayır və çıxış yolu kimi Rusiyanın ölkəsində mövqelərini zəiflətməyə çalışacaq. Müharibədən sonra, Rusiya Qarabağda elə bir vəziyyət yaradır ki, münaqişə həllə bitməyib. Ermənistanda seçkilərdən sonra Azərbaycanla danışıqların başlanması gözlənilirdi. Rusiya məhz bunun qarşısını almaq üçün Qarabağda erməni təxribatlarına rəvac verir. Baş verənlər Kremldən idarə olunur. Ermənistanın Qarabağda kiçik bir ərazidə heç bir siyasi-hərbi mövqeyi yoxdur. Rusiya 10 noyabr və 11 yanvar razılaşmalarını bununla sabotaj edir. Regionda sülhün və təhlükəsizliyin əldə edilməsi, Zəngəzur dəhlizinin açılması, Ermənistanla Azərbaycan arasında sülhün əldə edilməsi, Qərbin regionda təsirinin artmasına gətirib çıxaracaq. Ona görə də Rusiya bunun qarşısını almaq üçün istənilən varianta əl atacaq. Hətta sərhəddə erməni silahlılarının Azərbaycana qarşı hücumunu təşkil edəcək. Qarabağdakı erməni silahlılarının postlarımıza hücumunu təhrik edəcək”.

Politoloq onu da qeyd edib ki, baş verənlər Ermənistanda vəziyyəti daha da çətinləşdirəcək: “Paşinyan seçkidə söz verdiyi kimi sülh və iqtisadi ikişafı təmin edə bilməyəcək. Bu da xalqda ciddi narazılıq doğuracaq. Nəticədə Qarabağ klanı və R. Koçaryan Rusiyanın dəstəyi ilə hərəkətə keçəcək. Rusiya bununla N. Paşinyanın mövqelərini sarsıtmağa çalışır. Rusiya post-münaqişə dövründə sülhün və təhlükəsizliyin əldə edilməsinə mane olur. Rusiyanın əsas planı bundan ibarətdir. Ona görə də N. Paşinyanın hakimiyyəti təhlükəli ssenariyə keçir. Azərbaycana qarşı Rusiyanın təzyiqləri müsbət nəticə verməyəcək. Rusiyanın mövqeləri daha da zəifləyəcək. Azərbaycan Türkiyə ilə birgə regionda daha da güclənəcək. Azərbaycan Qarabağda erməni silahlı birləşmələrini zərərsizləşdirməlidir. Prezident İlham Əliyev baş verənləri sükutla qarşılamayacaq. Yaxın vaxtlarda Rusiya və erməniləri təşviş salacaq yeni bir planın şahidi ola bilərik”.

Hərbi ekspert Ədalət Verdiyev isə bildirib ki, Ermənistan Silahlı Qüvvələrinin həm Ermənistan-Azərbaycan dövlət sərhədində, həm də Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərdən Azərbaycan ordusunun mövqelərini atəşə tutması bir daha onu göstərir ki, Ermənistan imzaladığı üçtərəfli bəyanatın şərtlərini yerinə yetirmək fikrində deyil. Hərbi ekspert qeyd edib ki, bu addımlarla Ermənistan nizamlanmasına cəhd edilən münaqişəyə digər ölkələrin də cəlb edilməsi məqsədini güdür: “Hesab edirəm ki, hazırda özünün ən yüksək mənəvi-psixoloji ruh yüksəkliyini yaşayan Azərbaycan Ordusu yaxın günlərdə Ermənistan tərəfinin bu təxribatçı addımlarınaa layiqli cavab verəcək. Cavab isə Ermənistan üçün çox ağrılı və acılı ola bilər”.

***Z.Məmmədli***



## İranın yeni Prezidenti İlham Əliyevi təbrik etdi

***İranın yeni Prezidenti Seyid İbrahim Rəisi Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib.***

“Unikal” İranın ölkəmizdəki səfirliyinə istinadən xəbər verir ki, İbrahim Rəisi İlham Əliyevdən təbrik məktubu almaqdan məmnun olduğunu qeyd edib.

O vurğulayıb ki, iki ölkə arasında əlaqələr xalqlarımızın ortaq mədəniyyət və tarixinə, qardaşlıq bağlarına söykənir.

Rəisi, həmçinin İlham Əliyevi Azərbaycanın öz tarixi torpaqlarını uğurla azad etməsi münasibətilə təbrik edib.

İranın yeni dövlət başçısı bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilər üzərində suverenliyinin qaytarılması və ortaq sərhədlərin bərpa olunması ilə regional sülh və təhlükəsizliyi təmin etmək üçün qarşılıqlı səylər vasitəsilə yeni imkanlardan yararlanmaq və əməkdaşlıq səviyyəsini artırmaq yaxşı olardı.

İran Prezidenti məktubunun sonunda Prezident İlham Əliyevə can sağlığı və uğur, Azərbaycan xalqına isə əmin-amanlıq arzulayıb.

## Aİ Şurasının rəhbəri Ermənistana gedir

***Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Ermənistana səfər edəcək.***



“Unikal” bildirir ki, bu barədə hökumətin saytında məlumat yerləşdirilib.

Belə ki, Mişelin rəhbərlik etdiyi nümayəndə heyəti 16-17 iyul tarixlərində Ermənistanda olacaq. Bundan əvvəl, Mişel baş nazir vəzifəsini icra edən Nikol Paşinyana erkən parlament seçkilərindəki qələbəsi münasibətilə göndərdiyi məktubda Aİ-nin islahatların daha da dərinləşməsi prosesində Ermənistanı dəstəklədiyini qeyd edib.

## Sülhməramlılar Qarabağda hərbi təlimlər keçirir

***Rus sülhməramlıları Qarabağda müntəzəm döyüş hazırlığı təlimləri keçirib.***

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, topçular qapalı atəş mövqelərindən atəş praktikasını yerinə yetiriblər. Həmçinin BTR-82A ekipajları kəsişmədən keçməklə hərəkət ediblər.

# İlham Əliyev Ərdoğana zəng edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdinin ildönümü ilə bağlı telefonla zəng edib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb. Dövlət başçısı ilk növbədə həmin günlərdə həlak olan şəhidlərin xatirəsini dərin ehtiramla yad edib. Prezident İlham Əliyev bildirib ki, Türkiyə dövlətçiliyinə və xalqına qarşı yönəlmiş həmin xəyanətkar dövlət çevrilişi cəhdinin qarşısının alınmasında şəxsən Rəcəb Tayyib Ərdoğanın göstərdiyi qətiyyət və böyük liderlik müstəsna rol oynayıb.

Dövlət başçısı eyni zamanda qeyd edib ki, həmin tarixi sınaq günlərində xalqın Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşməsi Türkiyə xalqının dövlətçilik yolunda göstərdiyi fədakarlığının bariz nümunəsi olub.

Prezident İlham Əliyev Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdi günlərində olduğu kimi, bu gün də Azərbaycanın dost və qardaş Türkiyənin yanında olduğunu xüsusi vurğulayıb, ölkələrimiz və xalqlarımız arasında sıx birliyin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Rəcəb Tayyib Ərdoğan telefon zənginə və göstərilən diqqətə görə Azərbaycan Prezidentinə minnətdarlıq edib və öz növbəsində Türkiyə-Azərbaycan birliyi və qardaşlığının hər zaman möhkəmlənəcəyinə əmin olduğunu bildirib.

Söhbət zamanı əməkdaşlığın müxtəlif aspektləri müzakirə edilib.

# XİN Ermənistan Baş nazirinin müavininə cavab verdi

***Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Baş nazirinin müavini Tiqran Avinyanın "Qarabağın statusu məsələsi həll olunmayanadək sülh müqaviləsi olmayacaq" bəyanatına münasibət bildirib.***



"Unikal"ın xəbərinə görə, L. Abdullayeva bildirib ki, görünür, T. Avinyan artıq seçkilərin geridə qaldığını unudub.

"İndi populizm deyil, real işlərlə məşğul olmağın zamanıdır.Ümumiyyətlə, Ermənistan rəsmilərinin bölgədə yaranan yeni reallıqla uzlaşmayan və sülhü hər hansı əsassız məsələlər ilə şərtləndirməyə çalışan bəyanatları, ilk növbədə elə bu ölkənin özünə qarşıdır. Bölgədə sülh, təhlükəsizlik və tərəqqinin əldə edilməsinin ən yaxşı vasitəsi münasibətlərin normallaşmasıdır, bunun təməlində isə beynəlxalq hüquq prinsiplərinə hörmət və riayət dayanır. Bu, Azərbaycanın hər zaman nümayiş etdirdiyi mövqedir. Ərazilərimizin işğalı faktorunun aradan qaldırılması ilə biz qonşu Ermənistanla münasibətlərin normallaşmasına hazır olduğumuzu bəyan etdik, yeni əməkdaşlıq təşəbbüslərini dəstəklədik. Çünki biz destruktivlik deyil, konstruktivlik tərəfdarıyıq.

Qondarma "status" məsələsinə istinadlara gəldikdə, xatırlatmaq istərdik ki, bu xüsusda Azərbaycanın mövqeyi dəfələrlə və ən yüksək səviyyədə bəyan edilib. Dövlət başçımız 14 iyul tarixində səsləndirdiyi çıxışında bir daha vurğuladı: "Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı. Bütün Qarabağa aid olan rayonlar orada birləşib".

Eyni zamanda, biz bəzi xarici nümayəndələr tərəfindən də oxşar fikirlərin irəli sürüldüyünü müşahidə edirik. Təəssüf ki, bu insanların səsləndirdiyi boş vədlər və xülyalar Ermənistana yaxşı heç nəyi vəd etmir. Bunu Ermənistan dərk etməli, keçmişdən və tarixdən nəticə çıxarmalıdır", - deyə XİN rəsmisi qeyd edib.

# "Bəzən PZR testi qeyri-qanuni yollarla əldə olunur" - Təyyar Eyvazov

***""Delta" ştammı 104 ölkədə aşkarlanıb". Unikal.org-un məlumatına görə, bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov "İmmunitet və Peyvənd sertifikatı " mövzusunda çıxışında deyib.***

O bildirib ki, 72 saat əvvəl götürülən test neqativ ola bilər: "Ölkəyə daxil olduqdan sonra isə testin nəticəsi pozitiv çıxa bilər. Xəstəlik gizlilik dövründən çıxır və test nəticəsi pozitiv çıxır. Bəzən PZR testi qeyri-qanuni yollarla əldə olunur".

# Səhiyyə Nazirliyindən əhaliyə Qurban bayramı MÜRACİƏTİ

***"Yoluxmanın azalması səbəbindən insanlar pandemiyanın bitməsini düşünməsinlər. Amma indiki nəticələrə uzunmüddətli qabaqlıyıcı tədbirlər nəticəsində nail olmuşuq".***

"Unikal"ın məlumatına görə, bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov bildirib.

Baş infeksionist eyni zamanda qarşıdan gələn bayram günlərilə bağlı əhaliyə müraciət edib:

"Qurban bayramı zamanı kütləvi təmas halının olması qaçılmazdır. Belə olan halda sosial məsafə saxlanılmalı, maska taxılmalıdır. Bu gün mövcud olan peyvəndlərin hamısı yeni ştamlara qarşı effektivdir. Peyvəndlənmə ilə yanaşı, yay aylarında bayram günlərində vətəndaşları diqqətli və məsuliyyətli olmağa çağırıram".



## ELAN

**Gədəbəy rayon Dəyirmandağ kənd sakini İsmayılov Nizami Qasım oğlunun adına olan A 124805 nömrəli Torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.**

# DİN 3 rayonda əməliyyat keçirdi

***Abşeron, Səbail və Binəqədi rayonlarında polis əməkdaşları narkotiklərə qarşı əməliyyatlar keçirib.***



Daxili İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, Abşeron Rayon Polis İdarəsinin Saray Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan Saray qəsəbəsi sakini Fərid Vəliyev saxlanılıb.

Onun qəsəbə ərazisindəki evinin həyətinə baxış zamanı kultivasiya etdiyi ümumi çəkisi 2 kiloqram 260 qram olan 19 ədəd çətənə kolu aşkar edilib.

Fərid Vəliyev ifadəsində çətənə bitkilərini satmaq məqsədi ilə əkdiyini bildirib.

Səbail rayonunda da narkotik maddələrin satışı ilə məşğul olan şəxslər saxlanılıb. Rayon Polis İdarəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində S.Vurğun küçəsində Nəriman Ağayev narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinərək saxlanılıb. Şəxsi axtarış zamanı ondan heroin, 1 kibrit qutusu qurudulmuş marixuana və 7 ədəd psixotrop həb aşkar edilərək götürülüb. Ətrafında aparılan tədbirlərlə onun narkotik vasitələri internet üzərindən onlayn qaydada əldə etdiyi şəxs də müəyyən edilib.

Davam etdirilən əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə dəfələrlə məhkum olunmuş Azər Həsənov da saxlanılıb. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilib. Polis əməkdaşları tərəfindən onun yaşadığı mənzilə baxış zamanı isə oradan əlavə olaraq 2 kiloqram 300 qram heroin götürülüb.

Binəqədi rayon Polis İdarəsinin 6-cı Polis Bölməsinin əməkdaşları da narkotik vasitələrin və psixotrop maddələrin satışı ilə məşğul olan şəxsləri saxlayıb. Əməliyyat zamanı "patı" adlanan psixotrop maddə olan metamfetamin satmaqda şübhəli bilinən Ramin Rəcəbov, Pünhan Bayramlı və Kənan Yarıyev saxlanılıblar. Bu şəxslərdən satmaq məqsədi ilə əldə etdikləri külli miqdarda metamfetamin aşkar edilib.

Qeyd edilən hər 3 faktla bağlı Abşeron, Səbail və Binəqədi Rayon Polis İdarələrində araşdırmalar və istintaq tədbirləri davam etdirilir.

# "Delta" ştammı Azərbaycana necə gəlib? - Baş infeksionist açıqladı

***Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov "Delta" ştammının ölkəyə necə keçməsi ilə bağlı fikirlərə münasibət bildirib.***

"Unikal" xəbər verir ki, T.Eyvazov bir şəxsin uçuşdan əvvəl verdiyi testin neqativ çıxmasından müəyyən vaxtdan sonra nəticəsinin pozitiv olmasını misal gətirib.

O qeyd edib ki, xəstəliyin gizli dövrü var: "Sonuncu dövrdə virus özünü pozitiv olaraq büruzə verə bilər. Bilirik ki, adətən uçuşdan 72 saat əvvəl PCR testi nəticəsində nəticə neqativ ola bilər. Lakin keçən müddətdən sonra tənəffüs yollarına düşən virus növbəti analizdə pozitiv çıxa bilər".

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Şərurlu İsfəndiyar"ın adı növbəti qalmaqalda...

## Həftənin replikası: Azərbaycanda ən yaxşı inşaatçı haqqında ən çox şikayət edilən inşaatçıdır?



***Azərbaycanın stajlı qəzet oxucuları yəqin bu fikrimizlə razılaşmamış olmaz: illər uzunudur onlar ölkə mətbuatında "Şərurlu İsfəndiyar" barədə ancaq qalmaqallı xəbərlər oxuyublar!***

"Oxuyublar" deyirik, əslində reallıq ondan ibarətdir ki, oxumağa davam edirlər!

Hətta bu xəbərləri toplasaq məşhur rus yazıçısı Dostoyevskinin, ya da böyük fransız klassiki Vikor Hüqonun bütün yaradıcılığını əhatə edəcək qalınlıqda çoxcildlik kitablar nəşr etmək mümkündür. Az qala elə ay, yaxud həftə yoxdur ki, KİV səhfələrində, informasiya portallarında Azərbaycanın aparıcı tikinti maqnatlarından biri olan Şərurlu İsfəndiyar barədə yeni qalmaqallı xəbərə rastlamayaq.

Elə yola salmaq üzrə olduğumuz bu həftəni götürək: Bərdədə yaşayan şəhid anası Əhmədova Sütun Sərxan qızı gileylənir ki, fırıldağın və dələduzluğun qurbanı olub. Hədəf kimdir? Kim olacaq? Çox hörmətli İsfəndiyar Axundov! Yəni "Şərurlu İsfəndiyar"...

Şikayətdən belə aydın olur ki, şəhid ailəsi "Ulduz-S" MMC-nin direktoru Elçin Babayevlə alqı-satqı müqaviləsi imzalayıb. Müqavilə əsasında paytaxtın Yeni Yasamal massivində ümumi sahəsi 88 kvadratmetr olan ikiotaqlı mənzil alıb. Mənzilin qiyməti 33 200 manat olub. Ailə ilkin olaraq 4000 manat ödəniş edib. Bundan sonra 2010-2012-ci illər ərzində Elçin Babayevə 22 944 manat da ödənilib. Şikayətçinin 7000 manatdan bir qədər çox borcu qalıbmış ki, binanın tikintisi dayanıb.

Sonrası...

Sonrası tragikomediya filmlərinin süjetini xatırladır: binada tikintinin dayandırılması maliyyə çatışmazlığı ilə izah edilib. Bununla belə, şəhid anası ödənişlərini davam etdirib və Elçin Babayevə daha 3000 manat verib. Bundan sonra təxminən 4000 manat borcu qalıb. Lakin şirkətin vəkilləri "yox"a çıxıb. Elçin Babayev isə müxtəlif bəhanələrlə binanı təhvil verməkdən imtina edib. Bu zaman şəhid ailəsinə məlum olub ki, Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində Elçin Babayev barəsində cinayət işi başlanıb.

Şəhid anasının sözlərinə görə, Elçin Babayevin həbsindən sonra istintaq orqanı onu "Şərurlu İsfəndiyar" kimi tanınan tikinti maqnatı İsfəndiyar Axundova yönəldiblər.

Tikinti maqnatı onlara Yasamal ərazisindəki binalardan birində mənzil təklif edir, müqavilə bağlayır, şəhid ailəsinin hüquqi savadının olmamasından istifadə edərək onları 10 illik ipoteka kreditinə yönləndirir.

Nəticədə "Ulduz-S" MMC ilə bağlanmış müqavilə qüvvədən düşür. Şəhid anasının şirkətə ödədiyi 27 000 manata yaxın vəsait batır. İsfəndiyar Axundov isə satdığı yeni mənzilə görə onları 54 minlik kreditə məhkum edir.

Məsələ bununla da bitmir: şəhid ailəsi bildirir ki, 5 ildir ödəniş edirlər, amma kredit hələ bitməyib!

İstər-istəməz suallar yaranır. Əvvəla, başqa vaxt vətənpərvərlikdən, torpaq, bayraq sevgisindən dəm vuranlar övladlarını torpaq, bayraq uğrunda qurban verənlərə qarşı bu haqsızlığı edərkən heçmi üzləri qızarmır, vicdanları sızıldamır? Camaatın pulunu alıb hansısa binanı vaxtında təhvil vermirlər - başa düşdük. Eyni mənzili bir neçə adama satırlar - bunu da başa düşdük. İnsanlar halal pulları ilə aldıqları mənzilləri özəlləşdirə bilmirlər - lap bunu da başa düşdük! Yaxşı, bəs canını, qanını bu vətən uğrunda əsirgəməyən qəhrəmanların ailələrinə qarşı fırıldaqçılıq, dələduzluq etməyə nə ad verəsən? Bunun bir izahı varmı, ola bilərmi?!

İkincisi: niyə bu ölkənin tikinti sektorunda hər qalmaqalı qurcalayanda onun altından mütləq "Şərurlu İsfəndiyar" çıxır? Barəsində bu qədər şikayət, gileygüzar, sənədli-sübutlu ittiham olan bir adam hələ də ölkənin aparıcı tikinti maqnatlarından biri olmağı necə bacarır, nəyin, yaxud nələrin, kimin və ya kimlərin sayəsində bacarır? Uzun illərdir ölkə mətbuatında elə bir yazı, elə bir material göndərə bilərsinizmi ki, orada "Şərurlu İsfəndiyar" kimi tanınan tikinti maqnatının adı hansısa ittihamın hədəfi olmasın?! Yoxsa qanunların aliliyi deyilən prinsipin bu "fenomen"lə heç bir əlaqəsi yoxdur?!

Uzun sözün qısası, vətəndaşlar "Şərurlu İsfəndiyar" və onun kimi "toxunulmaz" tikinti maqnatlarının özbaşınalıqları barədə şikayətlənməkdən, mətbuat isə bu şikayətləri işıqlandırmaqdan yorulub, təngə gəlib.

Bəs aidiyyatı qurumlar nə düşünürlər? Yoxsa onlar belə "tikinti fenomenləri"nin nazı ilə hələ çoxmu oynamaq niyyətindədirlər?

Bəlkə ölkəmizdə ən yaxşı inşaatçı ən çox şikayət edilən inşaatçıdır, bizim xəbərimiz yoxdur?!

***Toğrul Əliyev***

# Prezident Belarusla müdafiə sahəsində müqaviləni təsdiqlədi



***Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Belarus Respublikasının Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlığın həyata keçirilməsi zamanı məxfi informasiyanın qarşılıqlı ötürülməsinə dair" Müqavilənin təsdiq edilməsi haqqında qanunu imzalayıb.***

Unikal.org xəbər verir ki, sənədə əsasən, "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Belarus Respublikasının Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlığın həyata keçirilməsi zamanı məxfi informasiyanın qarşılıqlı ötürülməsinə dair" 2021-ci il mayın 18-də Bakı şəhərində imzalanmış Müqavilə təsdiqlənib.

# Azad olunmuş ərazilərdə Qurban bayramı qeyd olunacaq



***"Bu il əvvəlki illərdən fərqli olaraq, işğaldan azad olunmuş torpaqlarımızda da Qurban bayramı qeyd olunacaq".***

"Unikal" xəbər verir ki, bunu AQTA-nın şöbə müdiri, respublikanın baş baytar müfəttişi Qalib Əbdüləliyev Qurban bayramı ilə bağlı sualları cavablandırarkən bildirib.

Q.Əbdüləliyev deyib ki, hər il olduğu kimi, bu il də heyvanların sağlamlığı ilə bağlı məqsədyönlü tədbirlər həyata keçirilib: "Təəssüf ki, bu il də bayramı pandemiya şəraitində qeyd edəcəyik. Buna görə xüsusilə diqqətli olmalıyıq. Qurban bayramı ətin daha çox istehlak olunduğundan xüsusi nəzarət tələb edir".

AQTA rəsmisinin sözlərinə görə, qurbanlıqların satışı həm də onlayn şəkildə həyata keçiriləcək: "Onlayn sifarişlər Bakı, Sumqayıt, Abeşronda fəaliyyət göstərən marketlər şəbəkəsi vasitəsilə həyata keçiriləcək. Heyvanları diri, bütöv cəmdək və hissələrə ayrılmış şəkildə sifariş vermək olar. Həmçinin qurbanlıqların təyinatı üzrə çatdırılması da həyata keçiriləcək".

# "Kənddən Şəhərə" yarmarkaları təşkil olunacaq



***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 17-18 iyul tarixlərində ənənəvi "Kənddən Şəhərə" həftəsonu yarmarkaları təşkil olunacaq.***

"Unikal" xəbər verir ki, yarmarkalar Bakı və Abşeron ərazisində üç fərqli ünvanda keçiriləcək. "Kənddən Şəhərə" həftəsonu yarmarkalarının təşkilində əsas məqsəd yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Budəfəki yarmarkalarda ümumilikdə 30-dan artıq regiondan 100-ə yaxın fermer 50-ə yaxın çeşiddə təbii kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcək.

Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədi ilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən ödənişsiz şəkildə faydalana bilərlər.

Qeyd edək ki, yarmarkalar karantin rejiminin tələblərinə əməl olunmaqla baş tutacaq. Yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla (tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və.) də təmin olunacaqlar. Yarmarkaya alış-verişə gələcək vətəndaşların temperaturları ölçüləcək, tibbi maskadan istifadəyə və sosial məsafənin gözlənilməsinə xüsusi diqqət yetiriləcək. Eyni zamanda, yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq. "Kənddən şəhərə" yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stasiyasının çıxışı)
- Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B ("İnqilab" kinoteatrının yanı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

# Vilayət Eyvazov Eduard Məmmədova yeni vəzifə verdi

***Kikboks üzrə dəfələrlə dünya və Avropa çempionu, beynəlxalq idman ustası, əməkdar məşqçi Eduard Məmmədova yeni vəzifə verilib.***

Bu barədə Unikal.org-a "Ağ canavar" ləqəbli idmançı özü məlumat verib:

"Dünən məni daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov qəbul etdi. Nazirin müvafiq əmrinə əsasən DİN-nin İdman Cəmiyyətində baş inspektor vəzifəsinə təyin edildim. İşim təkcə idmançılarla deyil. Mən həmçinin polislərin də fiziki hazırlığına nəzarət edəcəm. Cənab nazirə təşəkkür edirəm. O daim idmançıları diqqətdə saxlayır".

***Aygün İlqarqızı***



## Bəxtiyar Hacıyev Ramin Hacılını məhkəməyə verdi

***Avropa ölkələrinə mühacirətə getmək istəyən şəxslərə saxta arayışlar verməkdə və dələduzluq etməkdə təqsirləndirilən Ramin Hacılı barəsində daha bir məhkəmə iddiası irəli sürülüb.***

Deputatlığa keçmiş namizəd, ictimai fəal Bəxtiyar Hacıyev R.Hacılının qeydiyyatda olduğu Füzuli Rayon Məhkəməsinə müraciət edərək, ona qarşı iddia qaldırıb.

Hacıyev Ramin Hacılının 2013-cü ildən bəri onun barəsində sosial şəbəkələrdə və mediada irəli sürdüyü iddiaların yalan və böhtan xarakterli olduğunu bildirib.

Buna görə də xüsusi ittiham qaydasında şikayət edərək, R.Hacılının Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə təqsirləndirilərək həbs edilməsini istəyib.

İyulun 1-də hakim şikayəti icraata götürüb, lakin bir neçə gün sonra R.Hacılı Baş Prokurorluq tərəfindən dələduzluq və saxta sənədlər düzəltmək ittihamı ilə saxlanılaraq həbs edilib.

Bu gün isə Bəxtiyar Hacıyevin hazırda həbsdə olan Ramin Hacılıya qarşı iddiası üzrə məhkəmə prosesi keçiriləcək.

## Medianın İnkişafı Agentliyi yeni ofisə köçdü

***Bu gündən Medianın İnkişafı Agentliyi media subyektləri və jurnalistlərlə əlaqələrin daha səmərəli və asan qurulmasına, jurnalistlərin qəbulunun müasir standartlara uyğun həyata keçirilməsinə, işçilərin əmək şəraitinin daha da yaxşılaşdırılmasına şərait yaradılması məqsədilə Yasamal rayonu, Zahid Xəlilov küçəsi 36 ünvanında yerləşən yeni ofisə köçüb.***




Unikal.org xəbər verir ki, bununla əlaqədar olaraq hazırda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən icarə xidmətinin, mebel və digər təsərrüfat inventarlarının, telekommunikasiya və şəbəkə sisteminin qurulması üçün zəruri olan sistem və avadanlıqların satınalınması həyata keçirilməkdədir.

Qeyd olunan tədbirlərin həyata keçirilməsi yekunlaşdırıldıqdan sonra Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanı ilə yaradılmış MEDİA Agentliyi eyni məsuliyyət və peşəkarlıqla üzərinə düşən vəzifə və öhdəliklərinin icrasını yeni inzibati binasında davam etdirəcək.

# "Qarabağda hərbi əməliyyatlar keçirilməlidir"

## Mütəllim Rəhimli: "Bu işi ya Rusiya özü həyata keçirməlidir, yaxud bunu üçün Azərbaycana müvafiq şərait yaratmalıdır"

***İyulun 9-10-da Bakıda yerləşən diplomatik korpusların Şuşaya təşkil edilən səfərinə ATƏT-in Minsk Qrupu həmsədrləri olan Rusiya, Fransa və ABŞ səfirlərinin qatılmaması cəmiyyətdə birmənalı qarşılanmayıb. Özlərini vasitəçi, beynəlxalq hüququn təminatçısı hesab edən dövlətlərin bu cür yanaşması Azərbaycan ictimaiyyəti tərəfindən narazılıqla qarşılanıb. Lakin fərqli mövqelər də var. "Unikal" qəzetinə müsahibə verən Ədalər Partiyasının sədr müavini Mütəllim Rəhimli məsələyə fərqli aspektdən yanaşıb.***

***-Mütəllim bəy, bu günlərdə bir sıra diplomatların Şuşaya səfəri təşkil olundu, amma dəvət olunsalar da, Rusiya, Fransa və Amerika səfirləri iştirak etmədi. Bunu necə qiymətləndirirsiniz?***



- Üç ölkənin - ABŞ, Fransa və Rusiyanın səfirləri iqtidarın çağırışına rəğmən Şuşaya səfər etməkdən imtina ediblər. Bu, onların hüquqlarıdır. Azərbaycan hakimiyyəti xalqımızı istədiyinə məcbur edir və bəzən hesab edir ki, xarici ölkələrə qarşı da belə davrana bilər. Bu isə mümkün deyil. Hakimiyyət nümayəndələri o qədər yalan danışır ki, artıq öz yalanlarına özü də inanır. Adı çəkilən ölkələr isə öz təpkilərini göstərdilər.

***-Səfirliklərin bu barədə açıqlamaları da candərdi bir mövqe ifadəsi idi. Sizcə, bu yanaşma adıçəkilən dövlətlərin Qarabağ məsələsinə münasibətlərində obyektiv olmadıqlarını göstərmirmi?***

- Hakimiyyətin bu məsələni siyasiləşdirib daxili ictimai rəyi ABŞ, Fransa və Rusiyanın əleyhinə yönəltməsi özünün pis vəziyyətdən çıxmasına hesablanıb. Amma düşünmürəm ki, bu yaxşı nəticələr verəcək.

ABŞ səfirliyinin məsələ ilə bağlı açıqlamasını isə ciddi hesab etmək olar. Səfirlik birmənalı olaraq bildirdi ki, səfirin nə işlə məşğul olması və səfərləri haqqında hesabat vermək istəmirlər. Yəni, bu o deməkdir ki, tərəflər öz işləri ilə məşğul olsalar, yaxşıdır. Azərbaycanın ABŞ-ın daxili işlərinə qarışmaq kimi gülünc cəhdləri yolverilməzdir. Hesab edirəm ki, Fransa səfirliyinin açıqlaması da eyni məzmunu daşıyır.

Bütün bunları isə hakimiyyətin ABŞ, Fransa və Rusiyanın Qarabağ məsələsinə qeyri-obyektiv münasibəti ilə əlaqələndirməyin heç bir əsası yoxdur.

Səfirlik təmsil etdiyi dövlətin maraq və mənafelərini qoruyur. Ona isə yerləşdiyi ölkədə hakimiyyətin əmr və zor dili ilə danışmasına yol verilmir. Bunu beynəlxalq hüquq və Vyana Konvensiyası qadağan edir. Azərbaycan Respublikası 1992-ci il 21 iyul tarixində Vyana Konvensiyasına qoşulub. Düşünürəm ki, səfirliklər incə formada Azərbaycan iqtidarına üzərinə götürdüyü öhdəlikləri xatırladıblar. Lakin iqtidar mənsubları bunu başa düşmək istəmirlər.

***-Belə bir məqamda Azərbaycan hansı mövqeyi tutmalı, siyasətini necə qurmalıdır?***

- Azərbaycan iqtidarı özünü ərköyün uşaqlar kimi aparmağa son qoymalıdır. Diplomatik korpuslara münasibət onların təmsil etdiyi ölkəyə göstərilən mövqedir. Azərbaycan iqtidarı digər ölkələrə göstəriş vermək kimi qəbul olunmayan mövqedən imtina etməlidir.

***-Mütəllim bəy, 44 günlük Vətən Müharibəsindən sonra Ermənistan tərəfi razılaşma Bəyannaməsini müxtəlif zamanlarda, müxtəlif formalarla pozurlar. Bu təxribatçı addımlar barədə nə düşünürsünüz?***

- Biz vaxtilə deyəndə ki, müharibə yarımçıq saxlanıldı, o zaman əksəriyyət bunu qəbul etmirdi və qələbəmizə kölgə kimi qiymətləndirirdi. İndi görsənir ki, doğurdan da müharibə tamamilə bitməyib, işğal altındakı torpaqlarımız bütövlükdə azad olunmayıb. Belə olan halda isə vaxtaşırı təxribatların törədilməsi, atəşkəsin pozulması mümkündür. Hazırda situasiya elədir ki, Azərbaycan "sülhməramlılar"la ermənilərin birgə nəzarəti altında olan ərazilərindən hər zaman təhdid gözləməlidir.

***-Şuşa və Naxçıvan istiqamətində həyata keçirlən təxribatlar...***

-Bəli. Son vaxtlar atəşkəsin pozulması halları artmaqdadır. Bu isə erməni silahlı birləşmələrinin və yaxud diversant qruplarının tamamilə zərərsizləşdirilməsini gündəmə gətirir. Lakin ilk olaraq atəşkəsə nəzarət edən Rusiya sülhməramlılarının məsuliyyəti məsələsinə baxılmalıdır: onlar 10 noyabr razılaşması ilə üzərlərinə götürdükləri missiyanı nə qədər effektli yerinə yetirirlər. Rusiya bölgədəki duruma nəzarət imkanlarını açıqlamalıdır ki, Azərbaycan tərəfi situasiyanın inkişafını tamamilə dərk edə bilsin. Bununla da proses ya indiki kimi davam etdirilməli, ya da sülhə nəzarət üçün əlavə qüvvələrin regiona gətirilməsi həyata keçirilməlidir. Azərbaycan üçün ən məqbul variant Türkiyə silahlı qüvvələrinin gərgin zonalara yerləşdirilməsi olar. Ona görə də Rusiya tərəfinin yaranmış vəziyyətlə bağlı konkret danışması tələb olunur. Digər bir variant isə Qarabağda antiterror əməliyyatlarının keçirilməsidir. Bu işi ya Rusiya özü həyata keçirməlidir, yaxud bunun üçün Azərbaycana müvafiq şərait yaratmalıdır.

***-Azərbaycan Türkiyə illə müttəfiqliyi daha da möhkəmləndirmək yolu tutub. Sizcə, dünyanın əsas güclərinin bizə qarşı olduğu, yaxud da bizi sevmədiyi bir məqamda bu müttəfiqlik nə dərəcədə müsbət nəticələr verəcək?***

- Azərbaycanla Türkiyə arasındakı münasibətlərin inkişafı təbii əsaslara söykənir və onu kimlərinsə dayandırmağa çalışması mümkün deyil. Lakin indi iki ölkə arasındakı münasibətlərin real durumu danışılanlardan və arzu edilənlərdən xeyli aşağıdır. Hakimiyyət real addımları Rusiyaya qarşı atır, Türkiyə ilə münasibətlər isə daha çox söz, media və təbliğat səviyyəsindədir.

"Dünyanın əsas güclərinin bizə qarşı olduğu, yaxud da bizi sevmədiyi bir məqamda" fikri isə hakimiyyətin uydurmasıdır. Belə fövqəladə bir situasiya yoxdur. Hakimiyyət bununla diqqəti Qarabağ cəbhəsindəki səhvlərindən, ölkədə baş alıb gedən korrupsiya və rüşvətxorluqdan, ağır sosial durumdan yayındırmaq istəyir. Həmçinin işğal altındakı torpaqların azad edilməsini öz adlarına yazmaqla, olduğundan daha çox zəhmət bahasına başa gəldiyini ictimai fikirə sırımaq istəyir. Beləliklə də Azərbaycanın qəhrəman əsgərinin əməyini mənimsəməyə cəhd edilir.

Türkiyə ilə əməkdaşlığın genişlənməsi Azərbaycanda demokratiyanın inkişafına, azad seçkilərə, Qərbə inteqrasiyaya, vətəndaşların hakimiyyət tərəfindən qanunsuz təqibinin qarşısının alınmasına, milli təhlükəsizliyimizin təmin edilməsinə müsbət təsir göstərəcək. İnanmaq istərdim ki, bütün bunlara rəğmən hakimiyyət Türkiyə ilə əməkdaşlığı daha da genişləndirəcək və dərinləşdirəcək.

***Z.Məmmədli***

# Əhməd Vəliyev bankını böhrandan necə çıxardı...

## Sabiq deputat və rektorun bankı üçün çətin günlər arxada qaldı?

***Mətbuatdan məlum olduğu kimi, S&P Global Ratings beynəlxalq reytinq agentliyi "Muğanbank" üzrə uzun və qısamüddətli emitent kredit reytinqlərini '"CCC + / C"dən "B- / B" səviyyəsinə yüksəldib, banka dair proqnozunu sabit olaraq qiymətləndirib.***

Agentliyin məlumatına əsasən, "Muğanbank"ın ani likvidlik əmsalı sabitləşib və 2021-ci ildə (minimum normativ 30%-lə müqayisədə) 50%-dən yuxarı olub, fiziki şəxslərin depozit bazası isə 2021-ci il aprel ayının əvvəlində depozitlərin tam sığortalanma müddəti bitdikdən sonra artıb.

Məlumatda, həmçinin, banka, nəzarətçi səhmdarı tərəfindən 5 milyon Azərbaycan manatı məbləğində kapital qoyuluşunun edildiyi və bankın 2021-ci ilin ilk beş ayı ərzində yerli mühasibat standartlarına uyğun olaraq kiçik həcmdə mənfəət əldə etdiyi qeyd edilir. Qeyd edilən müsbət tendensiyalar, S&P Global Ratings-in bank üzrə uzun və qısamüddətli emitent kredit reytinqlərini "CCC + / C" səviyyəsindən "B- / B" səviyyəsinə yüksəltməsinə səbəb olub.

Agentlik, növbəti 12 ay ərzində bankın reytiqinin "Sabit"dən "Müsbət" səviyyəyə yüksələcəyini ehtimal etmir, bankın franşizasının rentabelli böyümə ilə nəticələnmədiyi və aktivlərin keyfiyyətindəki yaxşılaşma tendensiyasının əksinə olacağı təqdirdə isə, növbəti 12 ay ərzində mənfi reytinqin yarana biləcəyini, depozitlərin bankdan axını baş verdikdə, likvidliyin zəifləyəcəyini proqnozlaşdırır.

Qeyd edək ki, "Muğanbank" bank dairələrində daha çox "Odlar Yurdu" Universitetinin rektoru, sabiq deputat Əhməd



Vəliyevin bankı kimi tanınır. Mətbuatda sözügedən bankın adı hətta "MTN işində" belə hallandırılıb və riskli banklardan biri kimi təqdim olunub.

Məlumat üçün onu da bildirək ki, bankın səhmdarlarının nizamnamə kapitalındakı pay bölgüsü aşağıdakı kimidir: Mehdiyev Elmir Maqbet oğlu - 63,50 faiz (Ə.Vəliyevin kürəkəni, həmçinin bankın Müşahidə Şurasının sədri), Vəliyeva Vəfa Əhməd qızı - 12,05 faiz (Ə.Vəliyevin qızı), Mehdiyev Maqbet Rəhim oğlu - 13,10 faiz (Ə.Vəliyevin qudası, Tibb Universitetinin dosenti) Mehdiyeva Fəridə Cahandar qızı - 11.35 faiz (Ə.Vəliyevin qudası)g

Ə.Vəliyev özü isə bankın ona bağlılığını bir neçə dəfə inkar edib. Baxmayaraq ki, yuxarıdakı siyahıdan "Muğanbank"da sabiq deputat və rektorun ailə üzvlərinin tam paya sahib olduqları aydın görünür.

Xatırladaq ki, son illər mətbuatda "Muğanbank"ın da çətin maliyyə vəziyyətinə düşdüyü, banka Mərkəzi Bank tərəfindən xəbərdarlıq edildiyi, bağlanma ehtimalının yarandığı və s. barədə məlumatlar yer alıb. Bu da təsadüfi sayılmır, çünki bankın maliyyə göstəriciləri son illərdə onun vəziyyətinin qənaətbəxş olmadığından xəbər verirdi. Elə Ə.Vəliyevin bankının ötən ili 8 milyon manat zərərlə qapatması da belə düşünənlərin arqumentini gücləndirirdi.

Lakin S&P Global Ratings beynəlxalq reytinq agentliyinin "Muğanbank" üzrə uzun və qısamüddətli emitent kredit reytinqlərini '"CCC + / C"dən "B- / B" səviyyəsinə yüksəltməsi, banka dair proqnozunu isə sabit olaraq qiymətləndirməsi sabiq deputat və rektorun bankı üçün çətin günlərin müəyyən qədər arxada qaldığını düşünmək üçün əsas yaradır. Halbuki beynəlxalq reytinq agentliyinin məlumatında "Muğanbank" üçün müəyyən risklərin qaldığı da vurğulanıb. Elə növbəti 12 ay ərzində bankın franşizasının rentabelli böyümə ilə nəticələnmədiyi və aktivlərin keyfiyyətindəki yaxşılaşma tendensiyasının əksinə olacağı təqdirdə mənfi reytinqin yarana biləcəyi, depozitlərin bankdan axını baş verdikdə, likvidliyin zəifləyəcəyi barədə proqnozlar da bunu söyləməyə imkan verir.

Buna baxmayaraq, ümumi mənzərə son illərdə hətta bağlana biləcəyi belə gündəmə gələn "Muğanbank"ın dərin böhran mərhələsini müəyyən qədər arxada qoymuş kimi görünür. Bankın qeyri-rəsmi sahibi olan sabiq deputat və rektor Ə.Vəliyevin buna necə və nə qədər nail olduğuna isə yəqin ki, qarşıdakı dövrdə şahid olacağıq...

***Sənan Mirzə***



# Türkiyəli mütəxəssislər Azərbaycana gəlib

***Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Kitabxana və Nəşriyyat işi üzrə mütəxəssislərindən və Türkiyə Milli Kitabxanasının direktorundan ibarət nümayəndə heyəti iyulun 14-dən 18-dək Azərbaycanda səfərdə olacaqlar.***

"Unikal" xəbər verir ki, səfər çərçivəsində qonaqlar 15 iyul 2021-ci il saat 09:30-10:00-dək Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edəcəklər.

15 iyul saat 11:00-12:00-da Milli Kitabxana Mədəniyyət Nazirliyi, Türk Mədəniyyəti və İrsi Fondu və Milli Kitabxana ilə birgə "Nizami Gəncəvi və Yunus Əmrə:ortaq dəyərlərimiz" mövzusunda dəyirmi masa keçiriləcək.

15 iyul saat 12:00-da Milli Kitabxanada Avtomatlaşdırılmış Kitabxana İNformasiya Sistemləri, Beynəlxalq Kitab Eyniləşdirmə standartları (İSBN, İSSN və s.) təcrübə mübadiləsi ilə əlaqədar işgüzar görüşlər keçiriləcək.

16 iyul saat 16:00-da Milli Kitabxanada Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyi və İLESAM təşkilatı tərəfindən toplanmış 10 min nüxsə kitabın Milli Kitabxananın Mədəniyyət Nazirliyi ilə birgə həyata keçirdiyi "Qarabağa kitabla gedək" layihəsi çərçivəsində Milli Kitabxanaya təqdimat mərasimi keçiriləcək.

İyulun 17-də qonaqlar işğaldan azad olunmuş ərazilərimizə səfər edəcəklər.

# Zakir Həsənov Əfqanıstanın yeni səfiri ilə görüşüb

***İyulun 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhun ilə görüşüb.***

Müdafiə Nazirliyindən "Unikal"a bildirilib ki, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir Azərbaycan ilə Əfqanıstan arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində görəcəyi işlərdə ona uğurlar arzulayıb.

Müdafiə naziri Azərbaycanla Əfqanıstan arasında münasibətlərin inkişaf etməsində ölkə rəhbərlərinin rolunu xüsusi qeyd edərək hərbi sahədə də ikitərəfli əlaqələrin uğurla davam etdiyini bildirib.

Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında iştirakını diqqətə çatdıran general-polkovnik Z.Həsənov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Əfqanıstana nəqliyyat və logistik dəstəklə yanaşı Azərbaycanın eyni zamanda NATO missiyasına multimodal tranzit, təlim və Əfqan Milli Ordusu üzrə Etimad



Fonduna maliyyə yardımı ilə də töhfə verdiyini qeyd edib.

Azərbaycanın ərazi bütövlüyü məsələsində Əfqanıstanın hər zaman açıq mövqe nümayiş etdirdiyini qeyd edən Müdafiə naziri ölkəmizin ədalətli mübarizəsini dəstəklədiyinə görə qardaş Əfqanıstan xalqına təşəkkürünü bildirib.

Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən A.Ceyhun Azərbaycan-Əfqanıstan əlaqələrinin, xüsusilə də hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Vətən müharibəsində qazanılan qələbə münasibətilə xalqımızı təbrik edən A.Ceyhun, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Ölkələrimizin hər zaman müxtəlif beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəklədiklərini diqqətə çatdıran səfir A.Ceyhun Əfqanıstanda həyata keçirilən sülhməramlı missiyasına Azərbaycan hərbçilərinin verdiyi töhfəyə görə minnətdarlığını bildirib.

Səfir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycan və Əfqanıstan Müdafiə nazirlikləri arasında imzalanan sazişə əsasən əfqanıstanlı hərbi qulluqçuların Azərbaycan Müdafiə Nazirliyinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrində təhsil almalarının əhəmiyyətini vurğulayıb.

Görüşdə ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, hərbi əməkdaşlığın, xüsusilə hərbi təhsil sahəsində əlaqələrin inkişaf perspektivləri müzakirə edilib, regional təhlükəsizlik və müdafiə sahəsində qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

***Zaurə***

# Nazirlik 47 mindən çox vətəndaşı işlə təmin edib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin 6 ayında 47,4 min işsiz və işaxtaran şəxs münasib işlərlə təmin edilib.***



Agentlikdən "Unikal"a verilən məlumata görə, onlardan 21 487-si ödənişli ictimai işlərə cəlb olunub. 167-sinin əməkhaqlarının birgə maliyyələşdirilməsi proqramı üzrə işlə təminatı həyata keçirilib. 118 işsiz və işaxtaran peşə hazırlığı kurslarına, 147 şəxs peşəyönümü məsləhəti xidmətinə cəlb edilib.

1570 şəxsə işsizlikdən sığorta ödənişi təyin edilib, 96 peşə və kvalifikasiya standartı hazırlanaraq istifadəyə verilib.



# DİM: 6 abituriyent qəbul imtahanından qovuldu

***Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan 22 şəhər və rayonda təşkil olunub.***

DİM-dən "Unikal"a bildirlib ki, imtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 75 imtahan binası, 1266 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 75 ümumi imtahan rəhbəri, 249 imtahan rəhbəri, 1647 nəzarətçi-müəllim, 157 buraxılış rejimi əməkdaşı, 75 bina nümayəndəsi ayrılıb.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahanın gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. İmtahan heyəti müvafiq qoruyucu vasitələrlə (əlcək, üz siperi, tibbi maska) təmin olunub.

İmtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılıb, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunub. İştirakçıların bədən hərarəti normaya uyğun olub. 6 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub.

İmtahanda istifadə olunmuş qapalı və kodlaşdırıla bilən açıq tipli test tapşırıqlarının doğru cavab etalonları yaxın saatlarda Mərkəzin saytına və sosial şəbəkə hesablarına yerləşdiriləcək.

Bu gün saat 16:00-da DİM-in "Facebook" səhifəsi vasitəsilə canlı yayım ediləcək və Mərkəzin məsul əməkdaşları, ekspertlər tərəfindən həm III, həm də II ixtisas qrupu üzrə imtahanlarda istifadə olunmuş test tapşırıqları ilə bağlı geniş izahat veriləcək.

Abituriyentlər suallarını "Facebook"da yerləşdirilən müvafiq postun altına yaza və ya info@dim.gov.az elektron poçtuna göndərə bilərlər.

İyulun 16-dan etibarən DİM-də imtahan protokolları və materialların emalına başlanılacaq.

İmtahanlarda istifadə olunan açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

Növbəti qəbul imtahanlarında iştirak edəcək abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, sənədlərlə (şəxsiyyət vəsiqəsinin əsli, buraxılış vərəqi və sağlamlıq haqqında bəyannamə) bağlı diqqətli olsunlar. Bundan əlavə, imtahan saat 10:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

# Azərbaycanda onmilyonlarla manatlıq məmur biznesinin şok təfərrüatları...

## Ölkə bazarını başına götürmüş enerji içkiləri ilə bağlı tükürpədici faktlar ortaya çıxır

***Yola salmaq üzrə olduğumuz həftə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən haqsız rəqabət hallarının qarşısının alınması məqsədi ilə enerji içkiləri bazarında aparılan araşdırmalar zamanı daha dörd sahibkar barəsində iş qaldırıldığı açıqlanıb.***

Araşdırmaların nəticələrinə əsasən, "A+CO" ASC tərəfindən istehsal olunan "FULL energy" alkoqolsuz içkilərinin üzərində "ORIGINAL FULL ENERGY", "İMPLUSE FULL ENERGY", "MAKES YOUR ENERGY FULL" ifadələrinin istifadə olunması, "BERG ENERGY" MMC-nin eyni adlı məhsulunda "ENERGY", "100% MAXİMUM ENERGY" və "THE GREAT POWER FEEL THE COOLNESS" ifadələrinin istifadə olunması, sifarişçisi "NPG Azərbaycan" MMC və distribütoru "Veysəloğlu" MMC olan "PIT BULL" adlı içkinin markalanmasında isə "ENERGY" sözünün istifadə olunması istehlakçılarda həmin məhsulların enerji içkisi olması təəssüratlarının yaradılması, xassələri və keyfiyyəti barədə düzgün olmayan məlumatların verilməsi əlamətləri müəyyən edilib. Dövlət Xidməti tərəfindən "A+CO" ASC, "BERG ENERGY" MMC, "NPG Azərbaycan" MMC və "Veysəloğlu" MMC barədə antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işlər qaldırılıb.

Xatırladaq ki, bundan öncə Avrora" MMC tərəfindən istehsal olunan "BİZON energy" alkoqolsuz içkilərinin üzərində "ENERGY" və "CHARGE YOUR POWER" sözlərinin istifadə olunması alıcılarda həmin məhsulun guya enerji içkisi olması təəssüratını yaratdığı, bununla da içkinin xassələri və keyfiyyəti barədə düzgün olmayan məlumatlar verildiyi ortaya çıxmışdı. Odur ki, adıçəkilən Dövlət Xidməti tərəfindən "Avrora" MMC barədə antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə iş qaldırılmışdı.

Əlbəttə, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən haqsız rəqabət hallarının qarşısının alınması məqsədi ilə enerji içkiləri bazarında aparılan araşdırmalar təqdirəlayiqdir. Lakin ümumiyyətlə götürdükdə bu bazarın vətəndaşların sağlamlığı cəhətdən təhlükəli tərəfləri diqqətdən yayınmamalıdır.

Məsələ burasındadır ki, enerji içkilərinin zərərli tərəflərini saymaqla bitmir: yuxu pozğunluğu, əsəb sistemi pozğunluğu, baş ağrısı, mədə-bağırsaq sisteminin xəstəlikləri, xoralar.... Bu içkilərin asılılıq yaratması da mənfi tərəflərindən biridir. Əvvəlcə bunu hiss etmək olmur, amma bir müddət sonra fərqində olmadan gün ərzində 3-4 enerji içkisi içdiyinizi görəcəksiz. Enerji içkilərinin bir zərərli tərəfi də orqanizmdə suyun normadan artıq itirilməsinə səbəb olmasıdır. Susuzluq zamanı istifadə olunan enerji içkisi həm orqanizmə su tələbini azaldır, həm də əlavə suyun itirilməsinə səbəb olur. İnsan isə gün ərzində 2-3 litr su qəbul etməlidir.

Enerji içkilərinin spirtlə birlikdə istifadəsi də məsləhət görülmür. Xüsusilə idmanla məşğul olan şəxslər, idmandan sonra enerji içkilərindən uzaq dursalar, yaxşı olar. Çünki bu içkilərin istifadəsi ürəyin ritm pozğunluğuna, böyrək çatışmazlığına, infarkta səbəb olur. Sözsüz ki, heç kimin içdiyinə və yediyinə qarışmaq niyyətimiz yoxdur. Amma gələcək nəsilləri qorumaq lazımdır.

Qeyd edək ki, enerji içkilərinin sağlamlığa təhdid təşkil etdiyi və genefondumuza ciddi təhlükə yaratdığı barədə "Unikal" qəzetinin səhifələrində indiyədək bir neçə dəfə araşdırma yazı işıq üzü görüb. Bu cür yazılardan sonra sözügedən içkilərlə bağlı rəsmi xəbərdarlıq da edilib. Belə ki, xeyli əvvəl Qida Təhlükəsizliyi Agentliyi bəyanat yayaraq energetik içkilərdən 18 yaşa çatmamış yeniyetmələrin, hamilə qadınların, süd verən anaların, ürək-damar, psixonevroloji, böyrək və qaraciyər xəstəliklərindən əziyyət çəkən insanların istifadə etməməsini tövsiyə edib. Agentlikdən o da əlavə edilib ki, energetik içkilərin istehsalında istifadə olan kofein, şəkər, taurin, quarana kimi maddələr, rəngləyici qida əlavələri günlük normadan artıq qəbul edildiyi halda insan sağlamlığında müəyyən fəsadlar törədə bilər.



Lakin reallıq ondan ibarətdir ki, ölkəmizdə energetik içkilərin satışı kütləviləşib və xüsusən də isti yay mövsümündə bu cür içkilərə olan tələbat kəskin artır. Araşdırmalar onu da göstərir ki, bu cür içkilərin ən çox istifadəçisi gənclər və yeniyetmələrdir. Bu isə Azərbaycanın genefondunun ciddi təhdid altında olduğunun isbatıdır.

Elə müstəqil ekspertlər də mütəxəssislər də energetik içkilərin insan həyatı üçün təhlükəli olduğunu bildiriblər. Həmçinin bir sıra millət vəkilləri energetik içkilərin satışının qadağan olunması və yaxud ən azından yeniyetmələrə, uşaqlara satılmaması barədə təkliflər irəli sürüblər. Təkliflərdə bildirilirdi ki, energetik içkilər Azərbaycanda aksiz dərəcəsi təyin olunan mallar siyahısına daxil edilməli, qiymətinin bahalaşması üçün əlavə aksiya vergiləri tətbiq edilsin. Lakin bu təkliflər elə təklif olaraq qaldı.

Hazırda isə ölkə bazarını başına götürən energetik içkilər ölkə əhalisinin sağlamlığını təhdid vasitələri olaraq qalır.

Bu içkilərin əlaqədar məmurların, müvafiq dövlət qurumlarının gözü qarşısında sərbəst satışı belə deməyə əsas verir ki, kimlərsə azərbaycanlıların sağlamlığı hesabına qaz vurub qazan doldurmaqda, səlahiyyətli şəxslər də hansısa şəxsi maraqlar hesabına bu acı reallığa göz yummaqdadır.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin son məlumatından isə o da aydın olur ki, enerji içkiləri bazarının sağlamlıq üçün ümumi təhlükəsi bir yana, bu bazarda haqsız rəqabət baş alıb gedir, vətəndaşlara fərqli tərkibə malik məhsullar enerji içkisi kimi sırınmağa çalışılır. Belə qanunsuzluqlara yol verənlərin nəyə, yaxud kimə və ya kimlərə güvəndikləri, arxalandıqları isə ayrıca araşdırma mövzusu ola bilər...

***Toğrul Əliyev***

# Alimpaşa Məmmədova qarşı növbəti şok ittiham...

## Onun adamları icra başçısının səlahiyyətlərini icra edən şəxsin işləməsinə imkan vermir?

***Məlum olduğu kimi, bu il aprelin 26-da Şəmkir Rayon İcra Hakimiyyətinin o vaxtkı başçısı Alimpaşa Məmmədov hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyat zamanı saxlanılıb. Bundan bir gün sonra isə o, vəzifəsindən azad edilib.***

Xatırladaq ki, 2014-cü ildən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı olan A.Məmmədov çoxsaylı korrupsiya əməllərində təqsirləndirilir və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Son günlər isə istər mediada, istərsə də sosial şəbəkələrdə Şəmkirlə bağlı şikayət xarakterli iddialar yenidən intensivləşib. Bu iddiaların isə ana xəttini həbsdəki keçmiş rayon rəhbərinə yaxın kadrların hələ də müəyyən qanunsuzluqlarla məşğul olması təşkil edir.

"Unikal"ın əldə etdiyi məlumata görə, hazırda Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Fəxrəddin Vəliyev icra edir. Lakin ittihamlar bu yöndədir ki, A.Məmmədovun kadrları F.Vəliyevə vəzifəsini yerinə yetirməyə mane olur, özlərinin işini isə "köhnə hamam, köhnə tas" prinsipi üzərində qururlar.

Məsələn, yerli mediada yer alan şikayətlərin birində Alimpaşa Məmmədovun həbsdə olmasına baxmayaraq rayonun bir çox yüksək vəzifəli şəxslərini hələ də öz nəzarətində saxladığına dair iddia irəli sürülüb. Şikayət müəllifi olan Şəmkir sakini Sakit İsmayılovun yazdıqlarından sitat: "Şəmkir faktiki olaraq onun komandasının nəzarətindən çıxmayıb: "Onun müavini- ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynur Abdullayeva heç zaman iş yerində tapılmır. Alimpaşa Məmmədov başçı vəzifəsində olduğu dönəmdə Şəmkirdəki bağçalarda uşaqlara nə yemək verilir, nə içmək verilirdi. Bu gün də həmin eyni qaydadır.



Müəllimələr, baxıcılar öz ciblərindən "poroşok" alır qab, paltar yumağa. Dəfələrlə icra hakimiyyətinə gedib Aynur xanımla danışmaq istəmişəm ki, bu nə məsələdir. Amma işdə tapılmır. Bu adam işə gəlmir. Bu gün də rayonda bütün idarə və təşkilatların işi Alimpaşa Məmmədovun nəzarəti altındadır. Qüdrət Əliyev onun sağ əli olmaqla, Orxan Mürsəlovdan gələn tapşırıqları yerinə yetirir ki, əvvəlki cinayətlərini ört-basdır etsinlər. Ona görə də başçını əvəz edən Fəxrəddin müəllimin işini iflic ediblər, onu Orxan Mürsəlova görə sayan yoxdur. Şəmkir Rayon İcra Hakimiyyəti başçısı Aparatında Memarlıq və tikinti şöbəsinin müdiri İlqar Quliyev, Şəmkir Rayon İcra Hakimiyyəti başçısı aparatında Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Rasim Yaqub oğlu Mustafayev, başçı köməkçisi Mahir Əliyev və Aynur Abdullayeva onun göstərişləri ilə işləyirlər..."

Açığı, yazıda adları çəkilən şəxslərin bu ittihamlarla bağlı mövqeyini bilmirik. Deyilənlərin nə qədər doğru yaxud yalan olduğunu təsbit eləmək də imkansızdır. Lakin müxtəlif məcralarda - yazılı və elektron mediada, sosial şəbəkələrdə Şəmkirlə bağlı şikayət xarakterli yazı-pozuların davam etməsi sabiq icra başçısının həbsinin bu rayonda ciddi, köklü dəyişiklik yaratmadığını (əlbəttə, yerli məmurların öz işlərinə məsuliyyətli, qanunçuluq prizmasından yanaşması nöqteyi-nəzərindən!) söyləmək mümkündür.

Yeri gəlmişkən, bəzi iddialara görə, Şəmkirdəki yüksək vəzifələrin bir qismində hələ də Alimpaşa Məmmədovun kadrlarının çalışdığını yerli qaynaqlar da təsdiqləyir. Lakin bir sıra vəzifə sahiblərinin isə keçmiş Vergilər naziri, eyni zamanda nazir olarkən Şəmkiri kurasiya edən Fazil Məmmədovla yaxınlığı da vurğulanır. Hazırda vaxtını daha çox adıçəkilən rayondakı mülkündə keçirdiyi deyilən F.Məmmədovun digər postlara da öz adamlarını yerləşdirmək üçün səylər göstərdiyinə dair də iddialar var.

Unutmayaq ki, A.Məmmədovun qaranlıq tərcümeyi-halına baxmayaraq gözlənilməz şəkildə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə gətirilməsi də F.Məmmədovun xidməti idi.

Lakin həbsdəki sabiq başçı keçmiş "vergi şefi"nin hakimiyyət daxilindəki dayaqlarının sarsılmağa başladığını və tezliklə "vurulacağı"nı anlayınca özü ilə onun arasında məsafə qoymuş, bəzi iddialara görə isə onların münasibətləri kəskin şəkildə pisləşmişdi. Belə fikirlər də var ki, bu, əslində iki eks məmurun düşünülmüş planı olub. Məqsəd isə F.Məmmədov "vurulsa" belə, A.Məmmədovun öz postunu qorumasına, beləliklə, iki Məmmədovun Şəmkir üzərindəki hegemoniyasının davam etməsinə nail olmaq imiş...

Onu da deyək ki, artıq üç aya yaxındır Şəmkir rayonuna yeni icra başçısı təyin edilməyib. Yuxarıda yazılanlar fonunda bu, kifayət qədər maraq doğuran məqamdır.

***Sənan Mirzə***





# Dünyada pandemiyanın üçüncü dalğası başladı

***Dünya ölkələri COVID-19 pandemiyasının yeni, üçüncü dalğasının başlanğıcındadır.***

"Unikal"ın məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Gebreyesus deyib.

O bildirib ki, hazırda dünyada həm yoluxma, həm də ölüm hallarının yüksək artım tempi qeydə alınır.

Təşkilat rəhbərinin sözlərinə görə, koronavirusdan ölüm halları 10 həftə davam edən azalmadan sonra ilk dəfə artmağa başlayıb.

O əlavə edib ki, yoluxmanın artmasının əsas amillərindən biri koronavirusun "delta plus" ştammının yayılmasıdır.

# Nazirdən 15 iyulla bağlı paylaşım

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhdin ildönümüylə bağlı paylaşım edib.***

Unikal.org xəbər verir ki, nazir bu barədə Tvitter hesabında yazıb.

"Qardaş Türkiyədə sarsılmaz birliyin və güclü dayanışma ruhunun rəmzi olan 15 Temmuz! Vətən, millət, birlik uğrunda canından keçmiş bütün şəhidlərə Allahdan rəhmət, qazilərə cansağlığı arzulayırıq. Şəhidlər ölməz, Vətən bölünməz!", - XİN rəhbəri bildirib.

# Daha üç şadlıq sarayının sahibi cəzalandırıldı

***Bərdə Rayon Polis Şöbəsi, Qida Təhlükəsizliyi Agentliyi və Dövlət Vergi Xidməti əməkdaşlarının karantin rejimi qaydalarının təmin edilməsi məqsədilə birgə keçirdikləri tədbirlər nəticəsində rayon ərazisində yerləşən üç şadlıq sarayında pandemiya tələblərinin pozulduğu aşkarlanıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, keçirilən tədbirlər zamanı "Ay ulduz", "Kral" şadlıq saraylarında "icaze.e-gov.az" portalında qeydiyyatdan keçmədən toy məclisi təşkil edildiyi və "Nəqşicahan" şadlıq sarayında isə "COVID-19" pasportu olmayan şəxsin toy mərasiminə buraxılması müəyyən edilib.

Qeyd olunan qayda pozuntuları ilə əlaqədar restoran sahibləri barəsində inzibati qaydada protokollar tərtib edilib.

# Mədəniyyət naziri Special Edition Talks layihəsində çıxış edib

***İyulun 14-də Azərbaycan Azərbaycan Respublikasının mədəniyyət naziri cənab Anar Kərimov İslam Əməkdaşlığı Gənclər Forumu (IYCF) tərəfindən təşkil edilən xüsusi silsilə çıxışlar (Special Edition Talks) çərçivəsində Fəxri Qonaq qismində "Gənclər və mədəniyyətin formalaşdırılması" mövzusunda çıxış edib.***

Parlaq gələcəyin qurulmasında və mədəniyyətin dayanıqlı inkişafında gənclərin həlledici rolundan söhbət açan Anar Kərimov əvvəlcə bu sahədə dünyada və ölkəmizdə müşahidə olunan müasir meyllərdən danışdı. Yaradıcı gənclərin dəstəklənməsi naminə Mədəniyyət Nazirliyi tərəfindən təkcə COVID-19 pandemiyası dövründə 30-dan çox layihənin reallaşdırıldığı qeyd edildi.

Beynəlxalq səviyyədə gənclərin mədəniyyətdə rolunun artırılması məqsədilə Azərbaycanın dəstəyi ilə həyata keçirilən layihələrdən söz açan nazir, son illər dünyada cərəyan edən müxtəlif proseslər, rəqəmsallaşma, IV Sənaye İnqilabı kimi hadisələrin fonunda mədəniyyətin üzləşdiyi çağırışlardan da danışdı. Texnoloji inqilablar əsrində mədəniyyətə yeni baxışın formalaşdırılması və mədəni dəyərlərin qorunmasının



önəminə diqqət çəkildi. Bütün dünyada insanların artan məşquliyyətləri və azalan vaxtı çərçivəsində gündəlik həyat tərzlərinin onları robotlaşdırmaması üçün mədəniyyətin ruhlandırıcı və yüksək estetik zövq formalaşdıran təsirlərinin güclənməsinin zərurətə çevrildiyi vurğulandı.

Çıxışda həmçinin, Azərbaycanın təşəbbüsü ilə 2008-ci ildə yaradılan "Bakı Prosesi" qlobal təşəbbüsü və bu çərçivədə dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə birgə təşkil olunan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları , eləcə də, Gənclər üçün təşkil olunan panellər haqqında məlumat verildi.

Mədəni müxtəlifliyin qorunması istiqamətində ölkəmizin beynəlxalq miqyasda olduqca fəal olduğunu bildirən A.Kərimov, buna baxmayaraq 30 il müddətində Azərbaycanın işğal edilmiş ərazilərində mədəni irsin planlı şəkildə məhv edildiyini və bu ərazilərin Azərbaycanın özü tərəfindən 44 günlük Vətən müharibəsində azad olunmasına qədər mədəniyyətə təcavüzün dayandırılmadığını bildirdi.

Mədəniyyətin sülhə dəstək verdiyi kimi, sülhün də mədəniyyətin inkişafı üçün əsas şərt oluğunu vurğulayan Anar Kərimov müharibələrin və vandalizmin mədəniyyəti hədəf seçdiyini, bütün dünyada bunun qarşını birdəfəlik almaq məqsədlə Mədəniyyət Nazirliyi tərəfindən "Mədəniyyət üçün sülh" (#Peace4Culture) qlobal çağırışının və çağırış çərçivəsində "Sülh üçün yarat" (#Create4Peace) kampaniyasının elan edildiyini qeyd etdi. BMT-nin Sivilizasiyalar Alyansı və İSESKO kimi beynəlxalq təşkilatların çağırışı dəstəklədikləri vurğulandı.

Sonda nazir Anar Kərimov onlayn görüşdə iştirak edən gəncləri maraqlandıran sualları cavablandırdı.

# DİN-dən Bakının 5 rayonunda "patı" əməliyyatı



***Daxili İşlər Nazirliyi (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, kultivasiyası, sosial şəbəkələrdə onlayn yolla satışı ilə məşğul olan şəxslərin aşkar edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti əməliyyatlar həyata keçirilib.***

Bu barədə "Unikal"a DİN-in Mətbuat xidmətindən məlumat verilib. Belə ki, Baş İdarənin əməkdaşlarının Astara rayonunda həyata keçirdikləri əməliyyat zamanı narkotik vasitələrin ölkə ərazisinə qanunsuz yollarla gətirilməsini təmin etməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Şıxəli Fətullayev saxlanılıb. Onun Astara rayonu ərazisində dağlıq və meşəlik sahədə gizlətdiyi yerdən ümumilikdə 5 kiloqram 385 qram heroin aşkar edilib.

Baş İdarə əməkdaşlarının Yevlax rayonunda həyata keçirdikləri digər bir əməliyyat zamanı isə narkotik vasitələrin qanunsuz olaraq kultivasiya ilə məşğul olan Səbuhi Məmmədov saxlanılıb. Onun yaşadığı Aşağı Qarxun kəndindəki evinin həyətinə baxış zamanı 9 kiloqram 450 qram qurudulmuş marixuana və 7 kiloqram 800 qram yaş halda çətənə kolu aşkar olunub. Səbuhi Məmmədov çətənə kollarını satmaq məqsədi ilə xüsusi qulluq edərək yetişdirdiyini bildirib.

Baş İdarə əməkdaşlarının daxil olan əməliyyat məlumatı əsasında Binəqədi rayonunda həyata keçirdikləri daha bir əməliyyat zamanı isə paytaxt sakinləri Vüqar Hüseynov və Kamil Rəşidov saxlanılıblar. Onların üzərlərindən və Kamil Rəşidovun idarə etdiyi "Ravon" markalı avtomobilə baxış zamanı ümumilikdə 9 kiloqram heroin və 1 kiloqram 50 qram "patı" "şüşə" kimi tanınan psixotrop maddə metamfetamin aşkar olunub. İlkin dindirmə zamanı Vüqar Hüseynov narkotik vasitələri sosial şəbəkələrdə tanış olduğu xarici ölkələrdən birinin vətəndaşının Binəqədi rayonu ərazisində əvvəlcədən yerləşdirdiyi yerdən satmaq məqsədi ilə əldə etdiyini bildirib. Vüqar Hüseynov həmyerlisi Kamil Rəşidovla birlikdə həmin narkotik vasitələri, yəni heroini və "patı" adlanan metamfetamini Bakı şəhərində müxtəlif ünvanlara qoymaqla ayrı-ayrı şəxslərə çatdırılmasını və satışını təşkil etməli imiş.

Baş İdarə əməkdaşlarının Yasamal və Xətai rayonlarında həyata keçirdikləri əməliyyat zamanı narkotik vasitə və psixotrop maddələrin satışı ilə məşğul olan Vüsal İbrahimov və Babək Ağayev saxlanılıblar. Həmin şəxslərdən, həmçinin, onların yaşadıqları ünvanlardan müvafiq olaraq 21 və 165 qram metamfetamin, eləcə də, heroin aşkar edilib.

Baş İdarə əməkdaşlarının paytaxtın Nizami rayonunda həyata keçirdikləri digər bir əməliyyat zamanı isə narkotik vasitələrin satışı ilə məşğul olan 2 nəfər əvvəllər məhkum olunmuş Elşən Əyyubov və Samir Əliquliyev saxlanılıblar. Onlardan ümumilikdə 7 qrama yaxın narkotik vasitə və psixotrop maddə olan metamfetamin aşkar olunub.

Baş İdarə əməkdaşlarının Nərimanov rayonunda həyata keçirdikləri növbəti əməliyyat zamanı narkotik vasitə və psixotrop maddələrin satışı ilə məşğul olan Azər Fətullayev saxlanılıb. Onun üzərinə baxış zamanı ümumilikdəm 725 qram heroin və "patı", "şüşə" adlanan psixotrop maddə metamfetamin aşkar olunub.

Baş İdarə əməkdaşları tərəfindən Xəzər rayonunda həyata keçirilən sonuncu əməliyyat zamanı isə narkotik maddələrin satışı ilə məşğul olan Binə qəsəbəsi sakini Cavid Cəfərov və Buzovna qəsəbəsi sakini Şahrza Məlikov saxlanılıblar. Onlardan müvafiq olaraq 150 və 67 qram heroin və metamfetamin aşkar olunub.

Sonuncu əməliyyatlar zamanı Baş İdarənin əməkdaşları tərəfindən ümumilikdə 27 kiloqramdan artıq narkotik vasitələr və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb və adları sadalanan şəxslər tutularaq istintaqa cəlb olunublar. Cinayət işləri üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

"Yasamal, Xətai, Nizami, Nərimanov və Xəzər rayonlarında həyata keçirilən əməliyyatlar Baş İdarənin sosial şəbəkələrdəki yeni yaradılan səhifələrinə ayrı-ayrı vətəndaşlar tərəfindən göndərilən məlumatlar əsasında həyata keçirilib. Həmin məlumatları göndərən şəxslərə Baş İdarə adından təşəkkürümüzü bildirik", - DİN-in açıqlamasında bildirilib.

# Erməni terrorçuların Bakıdakı məhkəməsi təxirə salındı

***Bakı Ağır Cinayətlər Məhkəməsində Ermənistan vətəndaşlarından ibarət terrorçu silahlı birləşmənin daha bir qrupunun - Astanyan Yeqiş Oqanesoviç, Aramyan Karen Armenoviç, Avakyan Tiqran Manikoviç, Qevorkyan Qriqor Qevorqiyeviç, Manukyan Ovsep Robertoviç, Martirosyan Gevorg Samueloviç, Qevorkyan Robert Ovikoviç, Avetisyan Vaqarşak Aşotoviç, Akopyan Volodiya Qaqiqoviç, Sukiasyan Andranik Srapoviç, Manukyan Andranik Tiqranoviç, Saqateryan Qriqor Seyranoviç və Giraqusyan Eduard Armenoviçin barəsindəki cinayət işi üzrə məhkəmə prosesi təxirə salınıb.***



"Unikal"ın məlumatına görə, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə məlum olub ki, təqsirləndirilən şəxslərdən iki nəfərin vəkili məhkəmə prosesinə gəlməyib. Bu məqsədlə prosesdə qısamüddətli fasilə elan olunub. Fasilədən sonra hakim bildirib ki, məhkəmənin indiki mərhələsi müdafiə tərəflərin iştirakı olmadan davam etdirilə bilməz. Buna görə də proses iyulun 29-na təyin edilib.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 13 dekabr 2020-ci il tarixdə keçirilmiş anti-terror əməliyyatı nəticəsində tərksilah edilmiş Ermənistan Respublikasının vətəndaşları olan silahlı dəstələrin üzvləri barəsində DTX-nin İstintaq Baş idarəsində başlanmış cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.

İstintaq nəticəsində müəyyən edilib ki, cinayətkar silahlı birləşmələrin üzvləri 2020-ci ilin 26-27 noyabr tarixlərində Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 13 dekabr 2020-ci il tarixədək olan müddət ərzində ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar etmiş, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Məlumat verildiyi kimi, silahlı dəstənin əvvəlcə 14, sonra isə daha 13 nəfər üzvü barəsində cinayət işinin istintaqı yekunlaşdırılaraq təsdiq edilmiş ittiham aktı ilə birlikdə baxılması üçün məhkəməyə göndərilib.

Sadalanan faktlarla bağlı qanunsuz silahlı birləşmənin digər üzvlərinin - Mikaelyan Andranik Vazgenoviç, Soğomonyan Setrak Samveloviç, Karapetyan Rafik Robertoviç və qeyriləri də daxil olmaqla, ümumilikdə daha 26 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunmalarına dair cinayət işinin istintaqı yekunlaşdırılaraq Azərbaycan Respublikasının Baş prokurorunun müavini tərəfindən təsdiq edilmiş ittiham aktı ilə birlikdə baxılması üçün məhkəməyə göndərilib.

# Prokurorluq Göygöldə minaya düşən çobanla bağlı məlumat yaydı

***Dünən Göygöl rayonunda gənc çobanın minaya düşərək ölməsi faktı ilə bağlı cinayət işi başlanılıb.***

Göygöl rayon prokurorluğundan Unikal.org-a verilən məlumata görə, iyulun 14-də Göygöl rayonunun Mollacəlilli kənd sakini, 1990-cı il təvəllüdlü Ocaqquluyev Ramal Kamal oğlu Vətən müharibəsinədək Azərbaycan Ordusunun döyüş mövqeləri ilə Ermənistan silahlı qüvvələrinin mövqeləri arasındakı mina-



lanmış ərazi hesab olunan, Göygöl rayonu ilə işğaldan azad edilmiş Kəlbəcər rayonu arasında yerləşən "Bənövşəli yaylağı" adlanan ərazidə kənd-təsərrüfat fəaliyyəti ilə məşğul olarkən piyada əleyhinə minaya düşüb, aldığı xəsarətlərdən hadisə yerində ölüb.

Faktla bağlı Göygöl rayon prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 120.2.4 və digər maddələri ilə cinayət işi başlanılıb. Hazırda istintaq davam edir.

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda erkən nikah yenidən baş qaldırır

## Elgün Səfərov: "Bu gün erkən nikah əsasən Bakı kəndlərində qeydə alınır"

***Azərbaycanda erkən nikah problemi bir müddət müsbətə doğru həll olunsa da, son bir ildə yenidən aktuallaşıb. Bu günlərdə Şəkinin Dəhnə kəndində 16 yaşlı qızın 30 yaşlı kişiyə ərə verilməsi köhnə ənənənin yenidən baş qaldırdığını təsdiqləyir.***

Bəs görəsən erkən nikahın ölkəmizdə yenidən populyarlaşması səbəbləri nədir?

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin informasiya və analitik tədqiqatlar şöbəsinin müdiri Elgün Səfərov "Unikal" qəzetinə açıqlamasında deyib ki, son illərdə uşaq nikahlarının artımı yoxdur, tendensiya azalmağa doğru gedir. O, bildirir ki, 10 il əvvəl 4500 civarında olan uşaq nikahlarının sayı ötən il 360-a düşüb: " Son illərdə Azərbaycanda uşaq nikahları 10 dəfəyədək azalıb. Burada əsas gender streotipləri aradan qaldırılmalıdır. Erkən nikahı dünyanın heç bir ölkəsində tam aradan qaldırmaq mümkün olmayıb. Erkən nikahla mübarizə üçün öncə beyinlərdə mübarizə aparılmalıdır. Bu düşüncə insanların beynindən silinməlidir".

Komitə səlahiyyətlisi deyir ki, erkən nikaha məcbur etməyə görə, Azərbaycan qanunvericiliyində cəza tədbirləri var. Onun sözlərinə görə, erkən nikaha cəlb etməyə görə 4 min manat cərimə, azadlıqdan 4 ilədək məhrumetmə cəzası nəzərdə tutulur: "Bu məsələdə valideynlərin məsuliyyəti artırılmalıdır. 2019-cu ildə erkən nikaha məcbur etməyə görə, 1 cinayət məsuliyyətinə cəlb etmə faktı qeydə alınıb. 2020-ci ildə isə bir neçə fakt olub".

E. Səfərov onu da bildirir ki, bu gün erkən nikah əsasən Bakı kəndlərində qeydə alınır. Regionlardan isə siyahıya Şəki rayonu başçılıq edir: "Ölkə üzrə götürdükdə erkən nikaha görə Bakı kəndləri öndədir. İkinci yeri Şəki zonası, üçüncü yeri Gəncəbasar, dörd-beşinci yerləri isə cənub bölgəsi tutur. Halbuki cənub bölgəsi illər öncə erkən nikaha görə daha öncül yerlərdə qərarlaşırdı. Aparılan maarifləndirmə işləri bu sahədə vəziyyəti yaxşılaşdırıb".

Komitə səlahiyyətlisi onu da bildirir ki, təkcə erkən nikahlara yox, erkən nikaha qədər mərasimlərə qarşı da maarifləndirmə işləri aparılmalıdır: "Bəzən 16 yaşda nikah yox, "həri" mərasimləri təşkil olunur. Biz bunun da qarşısını almağa çalışırıq. Yəni nikaha qədər mərasimlər də aradan qaldırılmalıdır".

E. Səfərov deyir ki, orta məktəblərdə də erkən nikahın fəsadları şagirdlərə izah olunmalıdır: "Orta təhsil müəssisələrində çox təəssüf ki, ailə həyatı ilə bağlı dərslər tədris olunmur. Məktəblərdə də erkən nikahın fəsadları izah olunmalıdır" deyə Komitə rəsmisi bildirir.

"Azərbaycan Uşaqlar Birliyi"nin sədri Kəmalə Ağazadə isə erkən nikah probleminin yenidən cəmiyyətin bəlasına çevrilməsinin bir sıra səbəblərinin olduğunu söyləyir. Həmsöhbətimiz deyir ki, bir müddət aparılan maarifləndirmə işləri sayəsində cəmiyyətdə erkən nikaha daxil olma halları azalmışdı. K. Ağazadənin fikrincə, problemin yenidən baş qaldırmasında əsas amil cəmiyyətdə bu ənənənin yaşadılmasıdır: " Erkən nikah problemi aradan qalxmayıb. Ona görə də, bacardıqca maarifləndirmə işləri aparılmaqla yanaşı cəza tədbirləri də həyata keçirilməlidir. Çox təəssüf ki, cəmiyyət erkən nikah bəlasından xilas ola bilməyib. Bu gün erkən nikahların azaldığını söyləmək olmaz. Sadəcə olaraq bu faktlar az üzə çıxır. Yaxşı ki, sosial şəbəkələr erkən nikah hallarını ictimailəşdirir. Əks halda bu məsələlərdən insanlar xəbər tutmaz, faktlar gizli saxlanılar. Biz çalışmalıyıq ki, uşaqların erkən nikaha cəlb edilməsində rol oynayan, bunun qarşısını almayan valideynlər də cəzalandırılsın. Cəzasızlıq mühiti olduqca bu hallar təkrarlanacaq. Qanunvericiliyə müəyyən bəndlər əlavə etməliyik ki, sabah erkən nikahı "nişan", "adqoydu" adlandıranlar məsuliyyətlərinin yarandığından xəbərdar olsunlar. Valideyn bilməlidir ki, etdikləri bu əmələ görə azı 3-4 min manat dəyərində cərimələnəcəklər".



Ekspert onu da deyir ki, Azərbaycanda icra hakimiyyətləri yanındakı komissiyalar da erkən nikahla bağlı məsələləri araşdırmalı, mütəmadi işlər aparmalıdırlar.

Qeyd edək ki, erkən nikah, nikahdankənar uşaqların doğulması statistikanı da artırır. Ötən ay Ağcabədi rayon Mərkəzi Xəstəxanasında 15 yaşlı qızın ana olması faktı da bu cür hadisələrin hələ də təkrarlandığını göstərir. İyun ayında hamilə vəziyyətində rayon mərkəzi xəstəxanasına gətirilən 2006-cı il təvəllüdlü Səbinə Namiq qızı Hüseynovanın övladı dünyaya gəlib.

İyun ayının 5-də Lənkəran rayonu ərazisində yerləşən istirahət mərkəzlərindən birində 14 yaşlı qızla 36 yaşlı kişinin nişan mərasimi keçirilib. Bu ilin fevralında Gürcüstanın Daxili İşlər Nazirliyi (DİN) Tbilisinin Poniçala (Soğanlıq) kəndində 11 yaşlı azərbaycanlı qızın 15 yaşlı oğlana nişanlanması ilə bağlı sosial şəbəkələrdə video yayılmışdı. Videonun yayılmasından bir müddət sonra cinayət işi açılmışdı.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının Konstitusiyasında, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququnun olduğu əks olunub. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Bu yerdə onu da qeyd edək ki, erkən nikah, erkən nikaha məcbur etmə hallarına əsasən qızlar arasında rast gəlinir. Valideynlik hüquqlarının uşaqların mənafeyinə zidd həyata keçirilməsi yolverilməzdir. Valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidir. Uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verilməməlidir.Nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi və onların nikah yaşına çatmaları zəruridir.Heç kəs razılığı olmadan məcburi nikaha daxil olmağa məcbur edilə bilməz. Hər hansı şəxsin öz iradəsinin əleyhinə nikaha daxil olmasına məcbur edilməsi qadağan edilir. Nikah yaşına çatmayan şəxsin evləndirilməsi isə qanunsuz və əsassızdır, eyni zamanda şəxs nikah yaşına çatsa belə, arzulamadığı, öz razılığı olmadan ailə qurulmasına məcbur etmə qanunla qadağandır. Konstitusiyamızın yuxarıda qeyd olunan normasına əsasən, Cinayət Məcəlləsinin (CM) 176-1.1-ci maddəsi qadını nikaha daxil olmağa məcbur etməni, 176-1.2-ci hissəsi isə nikah yaşına çatmayan qadını nikaha daxil olmağa məcbur etməni özündə ehtiva edir və sanksiyalaşdırılıb. Azərbaycan Respublikasının qanunvericiliyinə görə, 16 yaşdan aşağı şəxslə cinsi əlaqədə olmaq cinayət sayılır. Nikaha girməyə isə 18 yaşı tamam olmuş şəxslərə icazə verilir.

Qeyd edək ki, "Ailə Məcəlləsi"nə görə, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

***Gülayə Məcid***

Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# Şeyx Polad Həşimovun və İlqar Mirzəyevin məzarını ziyarət etdi

***Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə müsəlman din xadimləri və Azərbaycanda fəaliyyət göstərən pravoslav, katolik, yəhudi, alban-udi dini konfessiyalarının rəhbərləri Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad İsrayıl oğlu Həşimovun və polkovnik İlqar Mirzəyevin İkinci Fəxri Xiyabandakı məzarlarını ildönümü münasibətilə ziyarət ediblər.***

"Unikal"ın xəbərinə görə, keçən il iyulun 14-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər zamanı müdafiənin ön xəttində qəhrəmancasına şəhid olan general-mayor Polad Həşimov və silahlı qüvvələrimizin 11 nəfər zabit və əsgərinin xatirəsi din xadimləri tərəfindən ehtiramla yad edilib. Onların şərəfinə Qurani-Kərim tilavət edildi, ruhlarına dualar oxundu, məzarları önünə gül dəstələri düzülüb. Dini konfessiya rəhbərləri Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman döyüşçüləri barəsində rəhmət duaları ilə çıxışlar ediblər.

Şeyxülislam Allahşükür Paşazadə Vətənimizin işğaldan azad olunması üçün canını fəda etmiş qəhrəman şəhidlərimizi xüsusi ehtiramla yad edərək ailələrinə səbr və dəyanət arzuladı, qazilərə şəfaət duaları diləyib. Şeyxülislam həzrətləri qeyd edib ki, Zəfər və uğur salnaməsi yazmış Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi sayəsində doğma Qarabağı işğaldan azad etdi, əsarətdə olan məscid və məbədlərimizi, milli-mənəvi irsimizi, dini abidələrimizi öz həqiqi sahiblərinə qaytardı, şəhidlərimizin qanını yerdə qoymadı. Bu gün Azərbaycan xalqı qüdrətli dövlət başçısının rəhbərliyi ilə əzəli torpaqlara Böyük Qayıdışı təmin etmək, dağıdılmış bölgəmizə yeni nəfəs vermək, Qarabağda müasir, yüksək səviyyədə həyat şəraiti yaratmaq istiqamətində fövqəladə zəhmətlər reallaşdırır. Dindarlarımız və din xadimlərimiz adından dövlət rəhbərliyinin bu məsuliyyətli dönəmdəki fədakar fəaliyyətlərinə minnətdarlığımızı ifadə edir, Uca Allahdan onların səylərinə rəvac diləyirik. Allah cümlə şəhidlərimizə rəhmət eləsin!

Anım mərasimində ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələrindən Bakı və Azərbaycan yeparxiyasının nümayəndəsi Konstantin (Pimenov), Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, Roma Katolik kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete, Avropa yəhudiləri dini icmasının sədri Aleksandr Şarovski və digərləri iştirak ediblər.

***Hüseyn***



# Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun tikintisi davam edir

***İşğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması və müasirləşdirilməsi istiqamətində genişmiqyaslı tikinti işləri aparılır. Bu cür layihələrdən birin olan Şükürbəyli-Cəbrayıl-Hadrut yeni avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Dövlət başçısının tapşırığına əsasən, sözügedən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yol boyu 6 avtomobil körpüsü və 11 yeraltı keçidin də tikintisi aparılır.***

"Unikal" xəbər verir ki, martın 15-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarına səfəri zamanı Şükürbəyli-Cəbrayıl-Hadrut yeni avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına start verildi.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Tikintisi aparılan yolun uzunluğu 39.7 kilometrdir. İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "13 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış yerli şirkət "Körpü-Bina-Tikinti" MMC birgə icra edir.

Hazırda sözügedən avtomobil yolu boyunca torpaq işləri aparılır. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun 21.5 metr enində yeni torpaq yatağının inşası işləri aparılır. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib. İnşa edilən yolun hərəkət hissəsi 14 metr, çiyinlər isə 2x1,5 metr təşkil edəcək. Həmçinin tikinti ərazisinə cəlb olunmuş xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədilə yol çiyinlərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işləri də paralel olaraq aparılır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Nəcəfli deyib ki, tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, agentliyin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir. Yol boyunca layihəyə uyğun olaraq suların ötürülməsini təmin etmək məqsədilə 38 dairəvi boru və 7 düzbucaqlı su ötürücü, həmçinin yolun 1, 18, 19, 26, 30 və 38-ci km-lik hissələrində olmaqla 6 yeni avtomobil körpüsü inşa edilir.

Körpülərdən biri Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolu ilə kəsişmədə layihələndirilib. Bununla da sözügedən avtomobil yolundan magistral yola rahat giriş-çıxış təmin olunacaq. Bununla yanaşı tikiləcək yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə 11 yerdə yolaltı keçidlərin tikintisi də aparılır.

Yolun tikintisinin qısa müddət ərzində icra edilməsini təmin etmək məqsədilə ərazidə düşərgənin inşası artıq bitmək üzrədir. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulur. Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-ə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nəqliyyat, rabitə və yüksək texnologiyalar İşçi Qrupu çərçivəsində digər aidiyyəti dövlət qurumları ilə koordinasiyada həyata keçirilən bu yol layihəsi Qarabağın vahid nəqliyyat konsepsiyasının ayrılmaz tərkib hissəsini təşkil edir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# "YAŞAT" düşərgəsi zəngin proqramı ilə davam edir

***"YAŞAT" Fondu və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən "YAŞAT" düşərgəsi davam edir.***



"Unikal" xəbər verir ki, düşərgənin üçüncü günündə səhər idmanın ardından iştirakçılar üçün fərdi psixoloji konsultasiya təşkil olunub.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin tərəfdaşlığı ilə yaradıcı intellekt müsabiqəsi - "Spagetti körpüsünün qurulması" yarışı təşkil olunub.

Uşaqlar, həmçinin yunan-roma güləşi üzrə Dünya Çempionu, Birinci Avropa Oyunlarının qalibi və Olimpiya mükafatçısı Rasul Çunayevlə görüşüb, xoş idman vaxtı keçiriblər.

Düşərgə çərçivəsində Azərbaycan Respublikasının Xalq artisti Aygün Kazımovanın iştirakı ilə konsert proqramı və musiqili əyləncə saatı da təşkil olunub.

Düşərgə müddətində tərəfdaş qurumlar tərəfindən iştirakçılara müxtəlif hədiyyələr təqdim olunub.

Xatırladaq ki, ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub. Layihə çərçivəsində hər düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, öz sahəsində müsbət imicə malik olan peşəkarlarla, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar keçirilməsi və yekunda müğənnilərin iştirakı ilə konsert proqramının keçirilməsi nəzərdə tutulub. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edəcəkdir.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV) və ASAN Radiodur. Düşərgənin baş sponsorları "Lankaran springs" otel, "PMD Hospitality"dir.

Sponsorlar: "Paşa Həyat", "Bravo", Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), "Gazelli Group", "Amo Group", "Rabitəbank", "Decoria", "Port of Baku", "Ali Nino", "Mango, "Next", "Slavyanka", "Shokki Mokki", "Panda Kids", "Civil" "Oven" "Azərsun" , "Gallery Kids" , "Setex group" , "Happy day cake".

Logistika dəstəyi: Bakı Nəqliyyat Agentliyi.

***Hüseyn***

# Yasamalda qanunsuz işləyən heyvan kəsimi məntəqələri aşkarlandı - SİYAHI

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Yasamal rayonu üzrə keçirdiyi növbəti monitorinqlər zamanı sanitar-gigiyenik norma və qaydalara əməl olunmadan fəaliyyət göstərən 5 heyvan kəsimi və ət satışı məntəqəsinə dəfələrlə rəsmi xəbərdarlıq edilməsinə və inzibati tədbirlər görülməsinə baxmayaraq, onların qanunsuz fəaliyyəti davam etdirdiklərini aşkar edib.***



AQTA-dan "Unikal"a verilən məlumata görə, nöqsanlar aşkarlanan heyvan kəsimi məntəqələrinin ünvanları aşağıdakılardır:

1. Bakı şəhəri, Yasamal rayonu, Əsəd Əhmədov küçəsində yerləşən, fiziki şəxs Əliyev Elnur Misir oğluna məxsus heyvan kəsimi məntəqəsi;

2. Bakı şəhəri, Yasamal rayonu, Əsəd Əhmədov küçəsi ilə A keçidinin kəsişməsində yerləşən, fiziki şəxs Muradov Zakir Vəlixan oğluna məxsus heyvan kəsimi məntəqəsi;

3. Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal qəsəbəsi, bina 7 ünvanında yerləşən, fiziki şəxs Əliyarov İsrayıl Kamran oğluna məxsus heyvan kəsimi məntəqəsi.

4. Bakı şəhəri, Yasamal rayonu, Z.Xəlilov 59 ünvanında yerləşən, fiziki şəxs Həşimov Hacıbala Mikayıl oğluna məxsus heyvan kəsimi məntəqəsi;

5. Bakı şəhəri, Yasamal rayonu, A.Abbasov 16 ünvanında yerləşən, fiziki şəxs Qafarov Rəfail Rafiq oğluna məxsus heyvan kəsimi məntəqəsi.

Agentlik bir daha qanunsuz heyvan kəsimi fəaliyyəti ilə məşğul olan şəxsləri qanunvericiliyin tələblərinə əməl etməyə və qanunazidd fəaliyyətdən yayınmağa çağırır.

***Aygün***

# Azərbaycanda şəhərlərarası gecə avtobus reysləri bərpa edilir

***Xüsusi karantin rejiminin gücləndirilməsi ilə əlaqədar olaraq şəhərlərarası (rayonlararası) gecə reysləri 2019-cu ilin mart ayından fəaliyyət göstərmirdi.***

Bu gündən etibarən şəhərlərarası (rayonlararası) sərnişindaşıma üzrə gecə reysləri bərpa edilir.

Dövlət Avtomobil Nəqliyyat Xidmətindən "Unikal"a verilən məlumata görə, daşıyıcı şirkətlərin və sərnişinlərin çoxsaylı müraciətini nəzərə alaraq, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin qərarı əsasında bu gündən etibarən sərnişinlər bərpa olunan gecə reysləri üzrə Qırmızı Körpü və Şəki istiqamətində səfər edə biləcək. Qeyd edək ki, Qırmızı Körpü istiqamətinə gecə reysləri dörd marşrut xətti üzrə, Şəki istiqamətinə isə iki marşrut xətti üzrə hərəkətdə olacaq. Biletləri Bakı Beynəlxalq Avtovağzal Kompleksindən və aidiyyəti üzrə region kassalarından əldə etmək mümkündür.

***Zaurə***

# Pandemiya ilə tənəzzülə uğrayan qlobal iqtisadiyyat - 2020-də nələr baş verdi?




***COVİD-19 pandemiyası qlobal həyatın bir çox sahələrinə ziyan vurdu və zərbələrin ən ağırı təbii ki, qlobal iqtisadiyyata dəydi. Pandemiya şəraitində qlobal iqtisadiyyat böyük bir tənəzzül yaşadı və iqtisadiyyata dəyən ziyan nəticəsində bir çox ölkələrdə inkişaf dayandı.***

Qlobal fond bazarları koronavirus pandemiyası səbəbindən yaranan itkilərdən tez bir zamanda qurtula bilsələr də, bu sahələrdə böyük enişlər yaşandı. “Dow Jones” indeksi 16 mart 2020-ci ildə indiyədək ən böyük gündəlik itkisini (3.000 xal) bildirdi və bu, dörd gün əvvəl bildirilən 2.300 ballıq rekordu geridə qoydu.

COVID-19 pandemiyasının yaratdığı iqtisadi ziyan əsasən tələbatın azalması ilə əlaqədar idi, yəni qlobal iqtisadiyyatda mövcud mal və xidmətləri almaq istəyən istehlakçıların sayı azaldı. Bu dinamika səyahət və turizm kimi pandemiyadan ağır təsirlənmiş sahələrdə açıq şəkildə görüldü. Virusun yayılmasını yavaşlatmaq üçün ölkələr səyahətə məhdudiyyətlər qoydu və nəticədə bir çox insan tətil və ya işgüzar səfərlər üçün uçuşlar edə bilmədi. İstehlakçı tələbatındakı azalmalar havayollarının planlı gəlirlərini itirməsinə səbəb oldu və nəticədə şirkətlər uçuşların sayını azaltmaqla xərcləri də azaltmaq məcburiyyətində qaldılar. Eyni dinamika digər sənaye sahələrində də müşahidə olundu. Gündəlik iş yerləri, ictimai tədbirlər və tətillər mümkün olmadığı üçün neft və yeni avtomobillərə də tələbat azaldı.

Birləşmiş Millətlər və İnkişaf Konfransı (UNCTAD) və Ümumdünya Turizm Təşkilatı (UNWTO) əməkdaşlığında təqdim olunan bir hesabatda 2020-ci ildə beynəlxalq turizm və onunla sıx əlaqəli sektorlarda 2,4 trilyon dollar zərər görüldüyü və bunun səbəbinin beynəlxalq turist səyahətlərindəki kəskin azalmanın birbaşa və dolayı təsirləri olduğu qeyd olunub.

UNCTAD keçən ilin iyul ayında beynəlxalq turizmdəki 4 aydan 12 aya qədər olan dayanmanın dolayı xərclər də daxil olmaqla qlobal iqtisadiyyata 1,2-3,3 trilyon dollar arasında zərər verəcəyini proqnozlaşdırmışdı.

Lakin UNCTAD-ın keçən il proqnozlaşdırılan ən pis ssenarisi belə, realda baş verənlər qarşısında optimist bir təxmin idi. Pandemiyanın başlamasından 15 ay sonra beynəlxalq səyahətlərin hələ də aşağı olması ilə itkilər əvvəllər gözləniləndən daha da ağırlaşdı.

UNWTO-ya görə, 2020-ci ilin yanvar-dekabr ayları arasında beynəlxalq turist səyahətləri 74% (1 milyard) azaldı. 2021-ci ilin birinci rübündə isə UNWTO Dünya Turizm Barometri 88%-lik bir azalma göstərdi.

Pandemiya şəraitində bir çox insan işini itirdi və ya gəlirləri azaldı. Əsas iqtisadiyyatlar arasında işsizlik nisbətləri artdı. Beynəlxalq Valyuta Fonduna (BVF) görə ABŞ-da işsizlərin nisbəti illik 8.9% -ə çatdı və bu, son on ildə iş yerlərinin genişləndirilməsinin sonu oldu.

Milyonlarla işçi hökumət tərəfindən dəstəklənən iqtisadiyyatın turizm və xidmət sektoru kimi sahələri üçün nəzərdə tutulmuş iş “saxlama” sxemlərinə cəlb edildi.

Ancaq bir çox ölkədə yeni iş imkanlarının sayı hələ də çox aşağıdır. Avstraliyadakı iş vakansiyaları 2019-cu ildəki səviyyəsinə qayıtdı, lakin Fransa, İspaniya, İngiltərə və bir sıra digər ölkələr bu inkişafdan geridə qaldı.

ABŞ-da ötən ildə COVİD-19 ilə əlaqəli pozuntular milyonlarla şəxsi işsizlik müavinəti üçün müraciət etməyə vadar etdi. Bu rəqəmlər təkcə aprel ayında 20,5 milyon idi. “Reuters”in hesabatına görə, 21 martdan bəri 36 milyondan çox insan işsizlik müavinəti üçün müraciət etmişdi ki, bu da işləyən əhalinin dörddə birini təşkil edirdi.

BVF 2020-ci ildə qlobal iqtisadiyyatın 4.4% azaldığını proqnozlaşdırdı. Təşkilat bu azalmanı 1930-cu illərin Böyük Depressiyasından bəri ən pis azalma kimi qiymətləndirdi. 2020-ci ildə inkişaf edən yeganə böyük iqtisadiyyat isə Çində idi. Burada 2.3% artım qeydə alındı.

Pandemiya və neftin qiymətindəki kəskin azalma Azərbaycan iqtisadiyyatına da güclü təsir göstərdi. Buna cavab olaraq, Azərbaycan pandemiyanın mənfi iqtisadi təsirlərini azaltmaq üçün postsovet ölkələri arasında ÜDM-in ən böyük hissəsini ayırdı.

Qlobal karantin səbəbindən yanacağa olan tələbatın kəskin azalması (30%) hökumətin gəlirlərinə mənfi təsir göstərərək ticarət və maliyyə axınlarında da kəskin azalmaya səbəb oldu və ölkənin turizm və xidmət sektorundan əldə edilən gəlirə ciddi şəkildə təsir etdi.

2020-ci ildə gündəlik iqtisadi itkilər 120-150 milyon manat (71-88 milyon ABŞ dolları) arasında dəyişdi.

Analitiklərin bir çoxu beynəlxalq səyahət və turizmin 2025-ci ilə qədər pandemiyadan əvvəlki səviyyəsinə qayıtmayacağını proqnozlaşdırıb.

## Məşğulluq və işsizlik səviyyəsi məlum olub



***Bu ilin iyulun 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5279,9 min nəfər olub, onlardan 4929,1 min nəfərini məşğul əhali təşkil edib.***

Bu barədə Dövlət Statistika Komitəsinin yaydığı məlumatda bildirilib. İyunun 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1677,6 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 911,6 min nəfər, qeyri-dövlət sektorunda isə 766 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 32,1 min nəfər, qeyri neft-qaz sektorunda isə 1645,5 min nəfər çalışıb. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,5 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,4 faizi tikintidə, 7,3 faizi emal sənayesində, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,9 faizi mədənçıxarma sənayesində, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 19,7 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi istirahət, əyləncə və incəsənət, 1,7 faizi informasiya və rabitə, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 0,9 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışıblar.

## Azərbaycanda orta aylıq əmək haqqı azalıb

***Bu ilin yanvar-may aylarında Azərbaycanda muzdlu işçilərin orta aylıq nominal əmək haqqı 724 manat təşkil edib.***

Dövlət Statistika Komitəsi xəbər verir ki, bu, ötən ilin eyni dövrünə nisbətən 0,7% azdır.

## 74 Vətən Müharibəsi iştirakçısının ipoteka krediti bağlanıb

***İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə ölkə vətəndaşlarına verilən ipoteka kreditləri üzrə həyatın və əmək qabiliyyətinin itirilməsi halı ilə bağlı son 5 ildə ümumilikdə 228 sığorta hadisəsi baş verib.***

Bu barədə Fonddan məlumat verilib. Məlumata görə, həmin sığorta hadisələri ilə bağlı borcalanların 7 028,8 min manat məbləğində kredit öhdəliyini İKZF-nin müvəkkil sığorta şirkətləri tam bağlayıb.

O cümlədən ipoteka krediti ilə mənzil əldə etmiş və Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış, eləcə də sağlamlığını itirmiş 74 vətəndaşın 3,4 milyon manat məbləğində kredit borcu ödənilib.

## Əhalinin gəlirlərində artım olub

***Bu ilin yanvar-iyun aylarında Azərbaycanda əhalinin nominal gəlirləri illik müqayisədə 0,4 % artaraq 27 580,7 milyon manat olub.***

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Məlumata görə, son 1 ildə ölkədə adambaşına düşən nominal gəlir isə 0,1% azalaraq 2 755 manat olub.

## Dövlət büdcəsində bu qədər vəsait qalıb

***Bu ilin yanvar-iyun aylarında Azərbaycanın dövlət büdcəsinin gəlirləri 11 755 milyon manat, xərcləri isə 11 590,5 milyon manat təşkil edib.***

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 2,2 % və 1,2 % azdır.

Son nəticədə büdcədə 164,5 milyon manat qalıq yaranıb. Xatırladaq ki, yanvar-may aylarının yekununda büdcə qalığı 368,9 milyon manat olmuşdu.

## Aqrar sektor böyüyüb

***Bu ilin yanvar-iyun aylarında Azərbaycanda 4 370,4 milyon manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub.***

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrünə nisbətən 5,6% çoxdur.

Son 1 ildə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 8,9 % artaraq 2 216,7 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 2,4 % artaraq 2 153,7 milyon manat olub.



# Keçmiş səfirdən İrəvana çağırış

***"Ermənistan xarici işlər nazirliyinin Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər edən səfirlərin İrəvanda həmin ölkələrin səfirlərini çağıraraq veto verməsi tamamilə yersiz və qeyri-etik davranışdır".***

Bunu Milli.Az-a açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç deyib.

O bildirib ki, Ermənistan rəhbərliyi ağlını başına yığmalıdır: "O ölkələr 1992-ci ildə Azərbaycan BMT-yə üzv olarkən Azərbaycanın ərazi bütövlüyünü tanıyıblar. Xüsusilə onların səfər etdikləri Şuşa Azərbaycan torpağıdır. Xankəndi, Xocavənd və Ağdərə də Azərbaycan torpaqlarıdır, bunu bütün dünya belə də bilməlidir. Onsuz da BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Azərbaycan torpaqlarının işğalına görə qəbul edilən qərarlardır. Bu ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyıblar. Ermənistan XİN-in etdiyi o ölkələrə tamamilə bir hörmətsizlikdir. Səfirləri XİN binasına çağırıb onlara xəbərdarlıq edilməsini qınayıram. Belə bir şeyi qəbul etmək mümkün deyil. Bundan başqa, Şuşaya getməyən ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin (ABŞ, Fransa, Rusiya) səfirləri də tamamilə səhv addım atdılar. Eyni zamanda həmsədr ölkələr BMT qətnamələri qəbul edilərkən imza atıblar. Ona görə də Şuşaya getməyənlər ev sahibi olan ölkənin (Azərbaycan) xalqına və dövlət başçısına qarşı hörmətsizlik etmiş oldular.

İndi Ermənistan heç cürə ağlını başına yığmır. Qonşu ilə münasibətləri normallaşdırmaq yerinə teztez bir problem çıxartmağa çalışır. Şuşa ətrafındakı Azərbaycan mövqelərinin ermənilər tərəfindən atəşə tutulmasını da qınayıram. Rus sülhməramlılarını da vəzifələrini, öhdəliklərini yerinə yetirməyə dəvət edirəm. Onlar (sülhməramlılar) nə üçün ordadırlar? Ermənilərin silahla təmin edilməsi qanunidirmi? Orada sülh ola bilərmi? Bu, tamamilə beynəlxalq sənədlərə, xüsusən də 10 noyabr üçtərəfli bəyanatına qarşı çıxmaqdır. O zaman bu qanunlar niyə qəbul edildi? Demək, bu qanuna, bu qaydalara əməl etmək lazımdır.

Ermənistan nə etməyə çalışır, bunu anlamaq mümkün deyil. Ermənistan bu günə qədər ancaq bir terror dövləti kimi yaşayıb. Biz nə istəyirik?! - Ermənistan normal, yaxşı bir qonşu olsun, Həm Türkiyənin, həm də Azərbaycanın. Biz də Ermənistanla əməkdaşlıq edək. Biz buna hazırıq. Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev Ermənistana dostluq əlini uzadıb. Bu əli sıxın, bu əli öpün. Çünki bu əldə çörək var. Bu əllər erməni xalqının gələcəyini müəyyənləşdirir. Onun üçün artıq zamanı gəldi. Ermənistan rəhbərliyinin ağlını başına yığması lazım və keçmişlə yox, gələcəklə yaşamağı lazımdır. Keçmiş keçmişdə qaldı, yeni reallıqla barışmaq lazımdır. O torpaqlar onsuz da Azərbaycanındır, Azərbaycan da bu torpaqları azad etdi. Amma ölkə xaricindəki qüvvələr təbii ki, diasporanın oyuncağı olarsa, belə problemlər yaradacaqlar. Ermənistan artıq bu cür davranışlardan əl çəkib, yeni bir hərtərəfli sülhə hazırlığa başlamalıdır. Yəni dediyimiz kimi Türkiyə və Azərbaycan Ermənistanla qonşuluq etməyə hazırdır. Yetər ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın, Türkiyəyə qarşı ərazi iddiasından əl çəksin, qondarma soyqırımı uydurmasını da artıq gündəmdən çıxartsın".

# Bakıdan Zəngəzur mesajı - Düşmənin ritmini pozacaq çağırış

***II Qarabağ savaşı Azərbaycanın regionda və dünyadakı siyasətində müəyyən dəyişikliklər edib, postkonflikt dövrünün tələblərinə uyğun manevrlər etmək imkanı yaratdısa, daxili siyasətdə həyata keçirilən sosial siyasətin ən başlıca vəzifəsi şəhid ailələrinin və müharibə əlillərinin sosial ehtiyaclarının yüksək səviyyədə təmin edilməsidir. Şəhid ailələri və müharibə əlillərinə qayğı dövlətin prioritet vəzifəsidir. Biz bu gün bunun bir daha şahidi olduq.***

Belə ki, Prezident İlham Əliyev Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edib. Bu tədbirlər heç şübhəsiz ki, həyata keçirilən genişmiqyaslı sosial layihənin bir hissəsidir. Ermənistanla müharibədə həlak olanların yaxınlarına nəinki ev, bir daxma da vermədiyi halda Azərbaycan şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan dəstək tədbirlərini var gücü ilə davam etdirir.



Prezident İlham Əliyev şəhid ailələri və müharibə əlilləri ilə görüşü zamanı olduqca önəmli mesajlar da verib. O, 44 günlük Vətən müharibəsi ilə bağlı bu vaxta kimi açıqlanmayan bəzi məsələlərə aydınlıq gətirib. Prezident qeyd edib ki, "Əgər Ermənistan kapitulyasiya aktını imzalamasaydı, biz dayanmayacaqdıq". Dövlət başçısının bu sözləri açıqlamadan çox Ermənistan hərbi-siyasi rəhbərliyinə bir mesajdır. Yəni 10 noyabr üçtərəfli bəyanatına Ermənistan imza atmasaydı Azərbaycan son qarış tarixi torpaqlarına qədər Ermənistandan söka-söka alacaqdı. Əgər bəyanatın şərtlərinə uyğun olaraq müharibə dayandısa və delimitasiya, demarkasiya işləri aparılmalıdırsa Ermənistan buna mütləq davam etməlidir. Bu proseslər də nəticədə ikitərəfli qaydada tərəflərin ərazi bütövlüyünün tanınması və sülh sazişinin imzalanması ilə nəticələnməlidir.

Prezident İlham Əliyev bildirib ki, mütləq şəkildə iki ölkə arasında sülh müqaviləsi imzalanmalıdır: "Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil. Hesab edirəm, bu çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər". Azərbaycan lideri bu mesajı ilə bu gün düz 1 ili tamam olan Tovuz hadisələrinin zəmin yaratdığı 44 günlük savaşın Ermənistan üçün hansı acı olaylarla nəticələndiyini yada salıb. Prezident bu sözlərlə Ermənistanın sülh sazişindən boyun qaçıracağı təqdirdə növbəti əməliyyatların qaçılmaz olacağı siqnalını da verib.

Bəli, belə də olacaq! Çünki rəsmi İrəvanın sülh sazişindən boyun qaçırması, bu gün Şuşa, Ağdam, Kəlbəcər, hətta Naxçıvan istiqamətində belə atəşkəsi pozması növbəti ərazi iddialarını ortaya atmaqla yanaşı, işğalçılıq siyasətlərindən əl çəkməyəcəklərinin göstəricisidir. Azərbaycan Prezidenti Tovuz hadisələrindən sonra çıxış etdiyi bütün kürsülərdən mütəmadi olaraq Ermənistan rəhbərliyinə təxribatları təcili dayandırıb münaqişəni danışıqlar yolu ilə həll etmək imkanından yararlanmağa dəvət etsə də, düşmən niyyətindən əl çəkmədi. Nəticə isə göz önündə, dünya da bu gün artıq Azərbaycanın regionda yaratdığı yeni reallığı qəbullanmağa başlayıb.

Dövlət başçısının da qeyd etdiyi kimi, bizim Ermənistana sülh təklifimiz yeni real vəziyyətə əsaslanır: "Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir. Onu da bildirməliyəm ki, delimitasiya işləri ilə bağlı indi beynəlxalq təşkilatlar da müsbət reaksiya verirlər. Əgər Ermənistan bunu etmək istəmirsə, özü bilər, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər. Necə ki, vaxtilə əgər öz xoşları ilə bizim torpaqlarımızdan çıxsaydılar, bu qədər rəzil duruma düşməzdilər. Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Əgər buna Ermənistanda mənfi reaksiya versə, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik". Məncə Ermənistan rəhbərliyi bu çağırışdan nəticə çıxarmalıdır. Qarşı tərəfin növbəti dəfə səhvə yol verməsi bu dövlətin məhvi ilə nəticələnə bilər. Azərbaycan Prezidenti bunun baş verməməsi üçün düşmənə yaratdığı şansdan yararlanmağı təklif edib. Çünki əksini nəinki Ermənistan rəhbərliyi, cəmiyyəti, heç dünya erməniləri, heç havadarları da qaldıra bilməyəcəklər.

Azərbaycan Prezidenti bu çıxışında da bir daha xatırladıb ki, "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapıb. Biz bunu birtərəfli qaydada həll etmişik. Əgər kimsə, mən ordan-burdan eşidirəm, yenə də başlayıb ki, məsələ öz həllini tapmalıdır, bu münaqişə həll olunmayıb. Çox yanlış və təhlükəli yoldadırlar. Əgər həll olunmayıbsa, onda qoy bizə izahat versinlər, necə həll olunmalıdır. Hesab edirik ki, bu, həll olunub, artıq müharibə dövrü arxada qalıb. Buna baxmayaraq, biz müharibəyə hər an hazırıq və hazır olmalıyıq". Bir dövlətin başçısı düşmənə ağlını başına yığmaq üçün bundan betər xəbərdarlıq edə bilməzdi. Çünki Prezident bundan öncəki çıxışlarında da, bu dəfə də qeyd etdi ki, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlənməməlidir. Artıq Dağlıq Qarabağ yoxdur, Qarabağ var. Prezident İlham Əliyevin iyulun 7-də imzaladığı Fərman da (Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonası yaradıldı - red) bu xülya ilə yaşayan ermənilərin ərazi iddialarının dəfni idi.

Dövlət başçısının şəhid ailələri və müharibə əlilləri ilə görüşü zamanı növbəti açıqlamasının isə ermənilərin qorxulu röyasına çevriləcəyi şübhə doğurmur: "Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. İndi bütün kommunikasiyalar açılandan sonra, əlbəttə, biz qayıdacağıq və Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına qayıdacaq. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə".

Bəli, Azərbaycan Prezidenti tarixin müxtəlif dövrlərində zəbt edilən, işğal edilən Azərbaycan torpaqlarının da geri qaytarılmasının vaxt-vədəsinin yetişdiyi mesajını verdi. Azərbaycan bu gün istər iqtisadi, istər hərbi, istərsə də xalq olaraq milli ruhu ilə ona məxsus olan bütün tarixi gerçəkliyi bərpa etmək iqtidarındadır. "İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq" sözləri ilə dövlət başçısı Azərbaycanın öz tarixi torpaqlarına qayıtmasının məqamının yetişdiyini və bu yolda heç bir qüvvənin bizi dayandıra bilməyəcəyini açıq bəyan edib. Çünki bunun başqa yolu yoxdur...

***Təhməz Əsədov***

# Azərbaycan millisinin bayraqdarının Olimpiya şanslarından yazdı - İJF



***Tokio-2020 Yay Olimpiya Oyunlarının cüdo yarışlarının əsas favoriti açıqlanıb.***

73 kq çəki dərəcəsində çıxış edən Ono Şohei qızıl medala əsas namizəd göstərilir. 2013-cü ildən sonra məğlubiyyət nə olduğunu bilməyən yaponiyalı doğma divarlar arasında da fəxri kürsünün ən yüksək pilləsinə iddia edir. Yaponiyalı Teddi Riner hesab olunan Ononun əsas rəqibi isə Azərbaycan millisinin bayraqdarı Rüstəm Orucov sayılır.

Beynəlxalq Cüdo Federasiyasının (İJF) rəsmi saytındakı dəyərləndirmə də bundan xəbər verir: "Ononun yeganə rəqibi Rüstəm Orucovdur. O, Rio Olimpiadasının və DÇ-2019-un gümüş mükafatçısıdır. Hər iki finalda ona Ono qalib gəlib. Bu qarşılaşmaların ikisində də Rüstəm daha artığına nail ola biləcəyini düşünərək gümüşlə kifayətlənib. Hazırda Orucov əbədi 2 nömrədir, həmişə fəxri kürsüdədir, əksər hallarda finalçı, bəzən qalibdir. Yaponiyalı əzəli "düşməni" ilə görüşlərdə yaxşı nəticəsi olmaması Rüstəmə psixoloji zərbə də vura bilər, əksinə, Ono mifini dağıtmaq üçün stimul da verə bilər".

İJF Ono ilə Rüstəmə rəqib ola biləcək digərləri arasında gürcüstanlı Laşa Şavdatuaşvili və cənubi koreyalı An Çamqrim də yer alıb.

Qeyd edək ki, Olimpiya Oyunları iyulun 23-də start götürəcək.

# "Neftçi" püşkatmada səpələndi

***Çempionlar Liqasında mövsümün növbəti püşkatma mərasimi iyulun 19-da olacaq.***

III təsnifat mərhələsinin püşkü Bakı vaxtı ilə saat 14:00-da atılacaq. Tədbirdə II təsnifat mərhələsinin 10 cütü və yarışa birbaşa başlayan 2 klub iştirak edəcək. Bu klublar "Slaviya" və "Reyncers"dir.

Püşkatma ərəfəsində komandalar səbətlərə bölünüb. II təsnifat mərhələsində oynayacaq "Neftçi"nin Yunanıstan "Olimpiakos"u ilə cütünün də səbəti bəlli olub.

Mərhələnin 3-cü ən reytinqlisi olan Pirey təmsilçisinin əmsalına görə bu cütlük səpələnmişlər sırasında olacaq. Bu, "Neftçi"nin mərhələ adlayacağı halda güclü rəqiblərlə oynaması anlamına gəlir.

Millimizin futbolçusu Mahir Emrelinin şərəfini qoruduğu "Legiya"nın "Flora" ilə cütü isə səpələnməmişlər sırasındadır. Bu da polşalıları "Neftçi"yə mümkün rəqib edir.

Ümumilikdə isə Azərbaycan çempionu üçün 5 mümkün cüt var. Yalnız bir cüt - "Alaşkert" - "Şerif" təmsilçimizə mümkün rəqib ola bilməz. Çünki UEFA Azərbaycan və Ermənistan klublarının qarşılaşmasına imkan vermir.

Qeyd edək ki, "Neftçi" və "Olimpiakos" arasında ilk oyun püşkdən 2 gün sonra keçiriləcək.

**Çempionlar Liqası**
**III təsnifat mərhələsi**
**Səpələnmişlər**

**"Dinamo" (Zaqreb, Xorvatiya) - "Omoniya" (Kipr)**
**"Slaviya" (Çexiya)**




**"Olimpiakos" (Yunanıstan) - "Neftçi" (Azərbaycan)**
**"Slovan" (Slovakiya) - "Yanq Boyz" (İsveçrə)**
**"Kayrat" (Qazaxıstan) - "Srvena zvezda" (Serbiya)**
**"Reyncers" (Şotlandiya)**

**Səpələnməmişlər**

**"Mura" (Sloveniya) - "Lüdoqorets" (Bolqarıstan)**
**"Malmö" (İsveç) - HİK (Finlandiya)**
**"Linkoln" (Cəbəllütariq) - ÇFR (Rumınıya)**
**"Legiya" (Polşa) - "Flora" (Estoniya)**
**"Alaşkert" (Ermənistan) - "Şerif" (Moldova)**
**"Ferensvaroş" (Macarıstan) - "Jalgiris" (Vilnüs, Litva)**

# Azarkeşlərin seçdiyi forma ilə oynayacaq - ilk gündə 35 min satış

***Braziliya klubu "Atletiko Mineyro" maraqlı addımla yadda qalıb.***

Rəhbərlik azarkeşlərin dizaynını müəyyənləşdirdiyi forma ilə yeni mövsümdə çıxış edəcək.

Klub bununla bağlı azarkeşlərə müraciət edib və qısa müddətdə onlardan 559 dizayn variantı alıb. Həmin formalardan 13-ü finala yüksəlib. Növbəti mövsümün forması isə 60 minə yaxın insan arasında aparılan səsvermə nəticəsində seçilib.

Maraqlıdır ki, satışa çıxarıldığı ilk gündəcə 35 min forma alınıb.

# "Səbail" Hagenlə vidalaşdı

***"Səbail" daha bir futbolçusu ilə yollarını ayırıb.***

Apasport.az xəbər verir ki, bu barədə məlumatı Bakı klubu rəsmi saytı vasitəsilə yayıb.

Qəsəbə təmsilçisi qapıçı Nikolas Hagenlə vidalaşıb. Qvatemala millisinin üzvü ilə başa çatan müqavilə müddəti yenilənməyib. 25 yaşlı qolkiper Premyer Liqa klubuna ötən ilin yayında ölkəsinin "Munisipial" klubundan keçib. O, 2020/21 mövsümündə çempionatda 26 oyun keçirib, qapısından 37 qol buraxıb.

Qeyd edək ki, "Səbail" yay fasiləsində həmçinin Ali Sesay, Ruslan Hacıyev, Urfan Abbasov, Məqsəd İsayev, Hendrik Ekşteyn, Amil Yunanov, Florian Kadriu, Milovan Petrovik və Luka İmnadze ilə də yollarını ayırıb.

# "Olimpiakos"la ilk oyunu portuqaliyalılara tapşırıldı - "Neftçi"nin

***Çempionlar Liqasının II təsnifat mərhələsi çərçivəsində keçiriləcək "Olimpiakos" - "Neftçi" matçının təyinatları açıqlanıb.***



Apasport.az-ın Bakı klubunun rəsmi saytına istinadən məlumatına görə, oyun Portuqaliyadan olan hakimlər briqadasına tapşırılıb.

Baş hakim Silva Pineyro Joao Pedro olacaq. Ona Pereyra Kosta Tiaqo Joze və Ferreyra Ribeyro Pedro Rikardo kömək edəcəklər. Dördüncü hakim funksiyasını Fernandes Korreyra Qustavo yerinə yetirəcək.

UEFA nümayəndəsi Kremer Klaue (Lüksemburq), hakim-inspektor isə Çeferin Darko (Sloveniya) olacaq.

Qeyd edək ki, iyulun 21-də Pireydə keçiriləcək qarşılaşma Bakı vaxtı ilə saat 23:00-da start götürəcək. Bu komandalar arasında cavab matçı ayın 28-də "Bakcell Arena"da (21:00) baş tutacaq.

# "Səbirsizliklə yığmaya dəvəti gözləyəcəyəm" - Filip Ozobiç

***"Məşqlərimiz çox yaxşı keçir. Düşünürəm ki, komandamızda hamı bu fikirlə razılaşar".***

Bunu "Qarabağ"ın futbolçusu Filip Ozobiç deyib. Ağdam təmsilçisinin xorvatiyalı futbolçusu klubunun saytına açıqlamasında Avstriya toplanışını dəyərləndirib: "Keçirdiyimiz yoldaşlıq oyunlarının da bizə çox xeyri dəyəcək. Tam hazır olmaq üçün qısa zamana ehtiyacımız var. Yeni oyunçularımız var və yəqin ki, yenə olacaq. Biz də onlara əlimizdən gələn köməyi etməliyik ki, komandaya, oyun üslubumuza tez uyğunlaşsınlar. Konfrans Liqasında qarşılaşacağımız "Aşdod" yaxşı komandadır. Bizi çətin oyun gözləyir. Əminəm ki, matça qədər tam hazır olacağıq".

O, milliləşdirilməsinə də münasibət bildirib. Ozobiçin sözlərinə görə, FİFA onun Azərbaycan yığmasında çıxış etməsinə icazə verdiyini dünən eşidib: "Mən də bu anı gözləyirdim. Uzun müddətdir ki, Azərbaycandayam. Bu ölkə mənə çox doğmadır. Səbirsizliklə millinin oyunlarını və yığmaya dəvəti gözləyəcəyəm. Yığmanın baş məşqçisi mənə dəvət göndərərsə, komandanın uğurları üçün hər zaman əlimdən gələni etməyə hazıram. Mənim üçün doğmalaşmış ölkənin millisi üçün əlimdən gələni əsirgəməyəcəm".